**BANK "BTB" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**Hər birinin nominal dəyəri 1000 (bir min) manat, ümumilikdə 5 000 000 (beş milyon) manat dəyərində 5 000 (beş min) ədəd adi, adlı, sənədsiz səhmlərin**

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə “Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında” Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. “Bank BTB” Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri dəyəri 1000 (bir min) manat, ümumilikdə 5 000 000 (beş milyon) manat dəyərində 5 000 (beş min) ədəd adi, adlı, sənədsiz səhmlərinin Emissiya Prospektinə daxil edilən bütün məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**Bank “BTB” ASC-nin İdarə Heyətinin Sədri v.i.e.:**

Hüseynov Eldəniz Ramiz oğlu

27.02.2024

**Bank “BTB” ASC-nin Maliyyə departamentinin direktoru - Baş mühasib:**

Rəfiyev Vüqar Səxavət oğlu

27.02.2024

**Bakı şəhəri** **27.02.2024-cü il**

**M Ü N D Ə R İ C A T**

XÜLASƏ........................................................................................................... 4

1. Xəbərdarlıq.......................................................................................................4

2. Emitent haqqında məlumat..............................................................................4

3. Səhmlər haqqında məlumat.............................................................................8

4. Risk faktorları...................................................................................................9

5. Təklif...............................................................................................................10

6.Emitentin auditorları barədə məlumat.................................................................. ...13

7.Seçilmiş maliyyə məlumatları.................................................................. ..........14

8.Emitent barədə məlumat...................................................................... .......16

9. Emitentin biznesinin icmalı.................................................................... ...16

10. Digər təşkilatlarda iştirak.................................................................................18

11.Emitentin əsas vəsaitləri...................................................................................18

12.Emitentin maliyyə və əməliyyat nəticələrinin icmalı...........................................19

13.Emitentin kapital resursları...............................................................................20

14.Tədqiqatlar, lisenziyalar və patentlər................................................................ 21

15.Tendensiyalar barədə məlumat.........................................................................21

16.Gəlir proqnozu..................................................................................................21

17.Emitentin təsisçiləri, idarəetmə və nəzarət orqanları.........................................21

18.Emitentin idarəedilməsində iştirak edən şəxslərin mükafatlandırılması, imtiyazları və digər kompensasiyaları............................................................................................24

19.İdarə heyətinin işgüzar praktikası.....................................................................25

20.Emitentin işçi heyəti..........................................................................................28

21.Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar..........28

22. Aidiyyəti şəxslərlə əməliyyatlar.........................................................................29

23. Emitentin maliyyə məlumatları...........................................................................30

24. Emitent haqqında əlavə məlumatlar..................................................................37

25.Səhmlər barədə məlumatlar...............................................................................41

26.Təklif edilən səhmlər haqqında məlumat............................................................42

27.Təklifin şərtləri....................................................................................................44

28.Ticarətə buraxılma və onun tənzimlənməsi.........................................................47

29.Təklif edilən səhmlərin mülkiyyətçiləri haqqında məlumat...................................48

30.Emissiya xərci.....................................................................................................48

31.Payın azalması....................................................................................................48

## XÜLASƏ

**1. Xəbərdarlıq**

**1.1.** Bu sənəd emissiya prospektinin giriş hissəsidir;

**1.2.** Səhmlərə investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilimәlidir;

**1.3.** Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya səhmlərə investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

**2. Emitent haqqında məlumat**

**2.1. Emitentin tam adı:** Bank BTB Açıq Səhmdar Cəmiyyəti

**2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** : Azərbaycan Respublikası, Açıq Səhmdar Cəmiyyəti,24.02.2010-cu il tarixində dövlət qeydiyyatına alınmışdır, (VÖEN: 1302164881) AZ1025, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov 27

**2.3.Emitentin rəqabət apardığı əsas bazarların təsviri və cari il üzrə fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin tədqiqi:** Azərbaycan bank sektoru məhsul çeşidlərinə görə çox inkişaf etmişdir və bu da bazar iştirakçıları arasında ciddi rəqabət yaradır. Mövcud müştəri bazasının qorunması və yeni müştərilərin cəlb edilməsi üçün hər bir bazar iştirakçısı, o cümlədən Bank “BTB” ASC xidmət keyfiyyətinin və müştəri təcrübəsinin davamlı olaraq təkmilləşdirilməsi, xidmətlərin rəqəmsallaşdırılması, biznes proseslərə innovativ həllərin tətbiqi və digər alətlərdən aktiv istifadə etməkdədir.

Bank “BTB” ASC universal bank xidmətləri göstərir, qanunvericilikdə və bank lisenziyasında nəzərdə tutulan bütün xidmətləri təklif edir. Emitent bütün məhsul çeşidləri üzrə bütün bank rəqibləri, o cümlədən oxşar maliyyə xidmətləri göstərən bank olmayan kredit təşkilatları ilə rəqabət aparır. Hazırda bazarda 23 bank və 54 bank olmayan kredit təşkilətları fəaliyyət göstərir. Azərbaycan bank bazarı son illər ərzində sürətlə artsa da, xüsusilə rəqəmsal həllər hesabına bank dövriyyəsi yüksəlsə də, əhalinin və biznes banklaşma səviyyəsi hələ də tam mənimsənilməyib və bazarın artım potensialı yüksək olaraq qalır. Bu çərçivədə, cari və gələcək çağırışları, habelə yeni müştəri təcrübələrinin inkişafını nəzərə alaraq, son illər ərzində Emitent satış nöqtələrinin optimizasiyasını təmin etmiş, rəqabət üstünlüyü yüksək olan məhsul çeşidlərinə və biznes proseslərə fokuslanmış, növbəti strateji dövrdə isə innovativ çağırışları nəzərə alaraq müvafiq transformasiyaları planlaşdırır.

Qeyd edək ki, Emitentin xarici bazarlarda rəqabəti mövcud deyil. Emitentin daxili bazarında 2023-ci il üzrə ümumi gəlirləri 34 616 378 manat olmuşdur ki, bunun da 87%-i faiz gəlirləri, qalan 13%-i isə haqq və komisyon gəlirlərindən ibarətdir. Emitentin faiz gəlirlərinin 48%-i istehlak, 38%-i biznes, 14%-i isə ipoteka kreditləri seqmenti üzrədir.

2022-ci il 33 083 000 manat olmuşdur ki, bunun da 86%-i faiz gəlirləri, qalan 14%-i isə haqq və komisyon gəlirlərindən ibarətdir.Emitentin faiz gəlirlərinin 47%-i istehlak, 38%-i biznes, 15%-i isə ipoteka kreditləri seqmenti üzrədir.

2021-ci il 31 220 000 manat olmuşdur ki, bunun da 85%-i faiz gəlirləri, qalan 15%-i isə haqq və komisyon gəlirlərindən ibarətdir. Emitentin faiz gəlirlərinin 48%-i istehlak, 37%-i biznes, 15%-i isə ipoteka kreditləri seqmenti üzrədir.

Emitentin gəlirləri Azərbaycan mənbəyindən formalaşır. Emitentin xidmət şəbəkəsi əsasən Bakı şəhərində yerləşib, bundan əlavə Gəncə və Sumqayıt şəhərlərində xidmət nöqtələri mövcuddur. Bankın gəlirlərinin 82%-i Bakı şəhəri üzrədir.

**2.4.Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

Azərbaycan Respublikasının Mərkəzi Bankının post-pandemiya dövründən başlayaraq pul siyasəti qiymət sabitliyinin təmin edilməsinə, proqnozlaşdırılan inflyasiya və inflyasiya gözləntilərinin qəbul edilmiş dəhliz daxilində sabitləşməsinə yönəlmişdir. Son 2 il ərzində pul siyasətinin ötürücülüyünün gücləndirilməsi və əməliyyat çərçivəsinin təkmilləşdirilməsi, bank sektorunda likvidliyin daha effektiv idarə olunması və maliyyə bazarlarının infrastruktur imkanlarının genişləndirilməsi istiqamətlərində Mərkəzi Bank tərəfindən ardıcıl islahatlar aparılmışdır. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na uyğun olaraq pul siyasətinin hədəfi növbəti ildə də illik inflyasiyanı 4±2% intervalında saxlanılması və bank sektorunun inklyuzivliyinin artırılmasına yönəlmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti tərəfindən “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası” təsdiq olunmuşdur. Strategiya ölkəmizdə sığorta, kapital bazarları və ödəniş sektorlarının inkişafı, habelə bank sektorunun dayanıqlığının daha da gücləndirilməsi kimi prioritetləri ehtiva edir. Burada maliyyə inklüzivliyinin genişləndirilməsi, maliyyə xidmətlərinin əhatəliliyinin artırılması və maliyyə alətlərinin şaxələndirilməsi, sektorda səmərəliliyin yüksəldilməsi, korporativ idarəetmənin tətbiqi, habelə şəffaflıq və dayanıqlığıngücləndirilməsi kimi strateji məqsədlər öz əksini tapır. Strategiya sənədi həmçinin hər sektorun ehtimal olunan bazar potensialını, Mərkəzi Bankın müvafiq keyfiyyət tələblərini və risk əsaslı nəzarət mexanizmlərini, rəqəmsal maliyyə, dayanıqlı maliyyə, peşəkar inkişaf və əhalinin maliyyə biliklərinin artırılması kimi istiqamətləri müəyyən edir.

“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən 2025-ci ilədək Azərbaycanda səhm və istiqraz bazarları artıq səmərəli fəaliyyət mərhələsinə çatacaqdır. Ölkədə fəaliyyət göstərən iri şirkətlərin əhəmiyyətli hissəsi listinqə daxil olacaq, yerli və xarici investorlar bu şirkətlərin emissiya etdiyi qiymətli kağızların böyük hissəsi ilə aktiv ticarət əməliyyatları aparacaqdır.

Şəffaflığın artması və texniki infrastrukturun təkmilləşməsi nəticəsində əməliyyatların aparılması asanlaşacaqdır. Şəffaf mühit investorlara riskləri və gözlənilən gəlirləri daha yaxşı qiymətləndirmək və əsaslandırılmış qərarlar vermək imkanı yaradacaqdır. Bu da səhm və istiqraz bazarlarında müxtəlifprofilli yerli və xarici investorların ticarət aparması ilə nəticələnəcəkdir.

**2.5. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin digər hüquqi şəxslərdən asılılığı mövcud deyil.

**2.6. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarların adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti**

| Adı | Vətəndaşlığı | Səhmlərin sayı | Nizamnamə Kpitalında faiz nisbəti |
|---|---|---|---|
| Mehdiyeva Nigar İsmayıl qızı | Azərbaycanlı | 49 829 | 74.9872% |
| Sadiq Rza İsmayıl oğlu | Azərbaycanlı | 12 634 | 19.0128% |

**2.7.Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları barədə məlumat –** Səhmdarların ümumi yığıncağında səsvermə "bir səsli səhm — bir səsdir" prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə

edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

**2.8. Mühüm iştirak payına sahib olan səhmdarlar tərəfindən emitentə nəzarətin xüsusiyyəti -** Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilə

**2.9 Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Maliyyə məlumatları ətraflı izah ilə müşayiət olunmalıdır:**

Son 3 maliyyə ili ərzində Emitentin aktivləri 356 781 min manatdan 369 155 min manata, kredit portfeli 260 803 min manatdan 268 610 min manata, müştəriləri hesabları 145 566 min manatdan 152 905 min manata yüksəlmişdir.

Emitent 2021-ci ili 824 min manat zərərlə, 2022-ci ili 4 742 min manat zərərlə, 2023-cü ili isə 2 779 min manat xalis zərərlə yekunlaşdırmışdır.

Covid-19 pandemiya dövründən yaranan çağırışların fonunda Emitent ümüumilikdə maliyyə göstəricilərinin sabitliyini təmin edə bilmiş, Mərkəzi Bankın tələb etdiyi məcmu kapital mövqeyinin minimum tələbdən yüksək saxlanılmasına nail olmuşdur. Bu məqsədlə, Emitent 2022-ci ildə 5 milyon manat həcmində subordinasiya borcunun cəlbinə və bu yolla məcmu kapitalının artırılmasına nail olmuşdur.

# ƏSAS MALİYYƏ GÖSTƏRİCİLƏRİ

| | 31.12.2023* | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| | | | |
| AKTİVLƏR | | | |
| | | | |
| Nağd pul qalıqları | 6 307 | 12 262 | 8 623 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankında qalıqları | 6 762 | 7 946 | 5 763 |
| Müştərilərə kreditlər | 268 610 | 262 250 | 260 803 |
| | | | |
| **Ümumi aktivlər** | **369 155** | **369 389** | **356 781** |
| | | | |
| **Öhdəliklər** | | | |
| Digər borc vəsaitləri | 159 992 | 157 401 | 156 180 |
| Müştəri hesabları | 152 905 | 159 843 | 145 566 |
| | | | |
| **Ümumi öhdəliklər** | **321 791** | **323 840** | **306 470** |
| | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 66 450 | 66 450 | 66 450 |
| Yığılmış zərər | (19 087) | (20 901) | (16 139) |
| | | | |
| **Cəmi Kapital** | **47 363** | **45 549** | **50 311** |
| | | | |
| **Cəmi öhdəliklər və kapital** | **369 155** | **369 389** | **356 781** |
| | | - | - |
| | | | |
| **Xalis faiz gəliri** | **11 246** | **11 208** | **10 855** |
| **Xalis haqq və komissiya gəliri** | **2 066** | **1 618** | **1 719** |
| **Əməliyyat gəlirləri** | **2 822** | **15 329** | **14 972** |
| **İnzibati və digər xərclər** | **(16 091)** | **(17 568)** | **(13 398)** |
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **(2 779)** | **(4 742)** | **(824)** |
| **Mənfəətdən vergilər** | **-** | **(20)** | **(29)** |
| **Xalis mənfəət (zərər)** | **(2 779)** | **(4 762)** | **(853)** |

*(min manatla) Azərbaycan manatı ilə*

* Audit olunmayıb.
2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

*(min manatla) Azərbaycan manatı ilə*

| | Səhm kapitalı | Bölüşdürülməmiş mənfəət/ (Yığılmış kəsir) | Cəmi kapital |
|---|---|---|---|
| | | | |
| **31 dekabr 2021-ci il tarixinə balans** | **66 450** | **(16 139)** | **50 311** |
| | | | |
| İl üçün mənfəət | - | (4 762) | (4 762) |
| | | | |
| **31 dekabr 2022-ci il tarixinə balans** | **66 450** | **(20 901)** | **45 549** |
| | 66 450 | (20 901) | 45 549 |
| | | | |
| İl üçün mənfəət | - | (2 779) | (2 779) |
| | | | |
| **31 dekabr 2023*-ci il tarixinə balans** | **66 450** | **(23 680)** | **42 770** |
| | 66 450 | (23 680) | 42 770 |

* Audit olunmayıb.
2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

**2.10 Seçilmiş proforma maliyyə məlumatı. Seçilmiş proforma maliyyə məlumatının emitentin fərziyyəyə əsaslanan vəziyyətinin təsvir edilməsi və buna görə də şirkətin faktiki maliyyə göstəricilərini özündə əks etdirməməsi barədə qeyd-** emitentin fərziyyəyə əsaslanan proforma maliyyə məlumatı mövcud deyil.

**2.11 Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil

**2.12 Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

Bank "BTB" ASC-nin və onun törəmə müəssisəsinin (birlikdə "Qrup") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatı, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatı, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatları, eləcədə də əhəmiyyətli mühasibat uçotu siyasətləri və digər izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatları Bankın 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, həmin tarixdə başa çatan il üçün konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**2.13 Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə vəsaitlərin mənbələri barədə məlumat:**

Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etmədiyi təqdirdə Emitent qanunvericilikdə nəzərdə tutulmuş bütün vasitələrdən istifadə etməklə cari hesablar üzrə və əmanətlər üzrə vəsaitlərin cəlb edilməsi, habelə banklararası bazardan cəlb və qiymətli kağızların buraxılması və s. formada əlavə vəsaitləri cəlb etmə imkanına malikdir.

## 3.Səhmlər haqqında məlumat

**3.1 Səhmlərin növü və qeydiyyat nömrəsi (tədavüldə olan səhmlər üçün ):** adi adlı sənədsiz səs hüququ verən səhm (bundan sonra: səhm və ya səhmlər),Dövlət qeydiyyat nömrəsi – AZ1001009443

**3.2 Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:** mövcud deyil.

**3.3 Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:** emitentin törəmə cəmiyyəti mövcud deyil.

**3.4 Səhmlərlə təsbit olunmuş hüquqların təsviri:**

- Cəmiyyətin idarə edilməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və nizamnanəsi ilə müəyyən edilmiş qaydada iştirak etmək;
- Cəmiyyətin idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə illik hesabat və mühasibat balansı ilə tanış olmaq;
- Ümumi Yığıncağın çağrılmasını tələb etmək;
- Ümumi Yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- Cəmiyyətin xalis mənfəətindən qanunvericiliklə müəyyən olunmuş qaydada dividend almaq;
- Cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək və tənzimlənən bazarda kütləvi təklif edilmiş səhmlərə münasibətdə nizamnamə kapitalındakı pay faizinə mütənasib olaraq üstünlük hüququna malik olmaq.
- Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- Azərbaycan Respublakının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

**3.5 Səhmlərlə təsbit olunan məhdudiyyətlərin təsviri:** Mövcud deyil.

**3.6 Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir**

**müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri –**

Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə Emitentin anderrayteri "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti (VÖEN:2004868781) vasitəsilə Bakı Fond Birjası vasitəsilə nominal qiymətlə həyata keçiriləcəkdir. Bununla bağlı müraciət Mərkəzi Bank tərəfindən bu səhmlərin buraxılışının dövlət qeydiyyatı və emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır. Səhmlərə alqı-satqı əqdləri Azərbaycan Respublikasının ərazisində fond birjasında bağlanılır. Fond birjasında səhmlərin alqı-satqı əqdləri yalnız bu səhmlərin fond birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir. Səhmlərin ticarətə buraxılması "Bakı Fond Birjasında qiymətli kağızların listinqi, delistinqi və ticarətə buraxılması Qaydaları"na əsasən həyata keçiriləcəkdir .

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti:*** *BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimifəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir: - dövlət qiymətli kağızları bazarı; - korporativ qiymətli kağızlar bazarı; - törəmə maliyyə alətləri bazarı. Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) Elektron poçt ünvanı: info@bse.az İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.azTel: (+99412) 539 72 49 BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, AzərbaycanRespublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.*

**Emitentin dividend siyasəti** – Dividend - hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi, o cümlədən hüquqi şəxs ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir. Səhmdar cəmiyyətinin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər.

Emitent tərəfindən səhmdarlara dividendlərin ödənilməsi Emitentin Səhmdarlarının Ümumi Yığıncağının Qərarına əsasən həyata keçirilir və Azərbaycan Respublikası Mərkəzi Bankının etirazı olmadığı halda həyata keçirilir.

## 4 Risk faktorları

### 4.1 Təklif olunan səhmlərlə əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:

Valyuta riski – valyuta məzənnəsinin əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

Faiz riski – faiz dərəcələrinin dəyişməsi ilə bağlı yarana biləcək itki riskidir.

İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;

Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;

Əməliyyat riski – daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;

Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;

Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri.

### 4.2 Səhm emissiyası zamanı emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan risk faktorları:

Emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan risk faktorlarına bazar riski, əməliyyat riski, əmtəə riski, hesablaşma və kontragent riski, konsentrasiya riski və s.risklər daxildir:

- bazar riski-bazar qiymətlərindəki dəyişikliklərdən yaranan balans və balansdankənar mövqelər üzrə itki riskləridir;
- əməliyyat riski-daxili proseslər, sistemdəki pozuntular, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləridir;
- əmtəə qiymət riski-əmtəə qiymətlərindəki volatillikdən meydana gələn itki riskləridir;
- hesablaşma və kontragent riski-hesablaşmanın vaxtından gec aparılması və hesablaşmanın aparılmasından əvvəl kontragentin defolt olması ucbatından öhdəliyini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləridir;
- konsentrasiya riski-investisiya şirkətinin ticarət kitabındakı mövqeləri üzrə fərdi müştəri və ya müştəri qrupuna qarşı məcmu kapitalının 25%-ni keçən risklərdir;.
- kredit riski – borcalanın öhdəliyini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləridir.

Sadalanan risklər arasında Emitent üçün xüsusi həssaslıq tələb edəb edən risklər – faiz riski, likvidlik riski və əməliyyat riskləridir. Ümumilikdə, Emitentin balansının valyuta strukturu, müştəri kompozisiyası və kapital mövqeyi bu və digər risklərə qarşı nisbi dayanıqlığını təmin edir.

Bank sektorunda rəqabətin kəskin olaraq artdığı, həmçinin Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən faiz uçot dərəcəsinin ardıcıl olaraq aşağı salındığı bir müddətdə bazarda faiz dərəcələrinin azalması riski mövcuddur, bu isə Emitentin gözlənilən mənfəətliliyinə azaldıcı təsir edə bilər. Bundan əlavə, ölkədə makro-iqtisadi və sosial sferada pisləşmələr olduğu halda, valyuta riskləri və ondan qaynaqlanan likvidlik risklərinin (depozit qaçışı) yaranması riski mövcuddur. Lakin qeyd edildiyi kimi, Emitentin aktiv və öhdəliklərinin strukturu, likvidlik və kapital mövqeyi bu risklərin minimum endirilməsinə zəmin yaradır.

Müştəri xidmətlərin texnoloji həllərin tətbiqinin artması isə öz-özlüyündə əməliyyat risklərini aktuallaşdırır, texniki tətbiqlərin davamlığının pozulması və yarana biləcək problemlər bu risklərə aiddir.

## 5 Təklif

**5.1 Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği -** Xərclər aşağıdakılardır:

- Bakı Fond Birjasının səhmlərinin yerləşdirilməsi üzrə komissiyası səhmlərin nominal dəyərinin 0.05% (min.0.5- max.500 azn).
- Milli Depozit Mərkəzində səhmlərin saxlanması və reyestrinin aparılması üzrə xidmətlərin göstərilməsinə görə emitent tərəfindən səhmin nominal dəyərinin 0.02 %-i, (minimum 50, maksimum 500) ödənilir- Maksimum ödəməli olduğumuz üçün 500 AZN ödənilir
- Emissiya prospektinin dövlət qeydiyyatına alınması ilə bağlı dövlət rüsumu-1200 azn
- Səhmlərin listinqə salınması üçün olan xidmət haqqı-500 azn
- Anderrayter şirkətinin xidmət haqqı: yeni emissiya olunacaq səhmlərin ümumi məbləğinin 0.05% miqdarında-2500 azn

Emissiyanın həyata keçirilməsi nəticəsində cəlb olunacaq vəsaitlərin xalis maksimum məbləği 4994300 manatdır.

**5.2 Təklifin səbəbləri, gəlirlərin istifadəsi, gəlirlərin nəzərdə tutulan xalis məbləği –** Təklifin səbəbi Emitentin gələcək inkişafı və artım planlarının icrası çərçivəsində Azərbaycan

Respublikası Mərkəzi Bankının müəyyən etdiyi minimum kapital tələblərinə cavab verməsi və dayanıqlı kapital mövqeyinin təmin olunmasıdır. Emissiya nəticəsində cəlb olunucaq vəsaitlər Emitentin fəaliyyətinin mühüm növlərindən biri olan kreditləşmədə istifadə olunacaq. Emissiyanın həyata keçirilməsi nəticəsində cəlb olunacaq vəsaitlərin xalis məbləği 4994300 manatdır.

**Təklifin şərtlərinin təsviri –** Hər birinin nominal dəyəri 1000 (bir min) manat təşkil edən səhmin təklifi nəzərdə tutulur. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri: Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri "Assist Finance İnvestisiya Şirkəti" ASC tərəfindən Bakı Fond Birjası QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Mövcud səhmdarlar əlavə buraxılan səhmləri cəmiyyətin nizamnamə kapitalında malik olduqları paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdirlər. Bu üstünlük hüququndan istifadə imkanı barədə bildiriş əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra 5 (beş) iş günü ərzində səhmdar cəmiyyəti tərəfindən sifarişli poçt göndərişi ilə hər bir səhmdara göndəriləcəkdir. Əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ən geci 5 (beş) iş günü ərzində abunə yazılışının başlama vaxtı elan ediləcəkdir (bu zaman mövcud səhmdarların üstünlük hüququndan istifadə etməsi ilə bağlı müəyyən olunmuş müddət tələbi nəzərə alınacaqdır) və abunə yazılışının keçirilməsi müddəti ən geci 5 (beş) iş günü müddətində davam edəcəkdir.

Abunə yazılışı başa çatdıqdan sonra ən geci 5 (beş) iş günü ərzində emitent və yerləşdirməni həyata keçirən anderrayter səhmlərin yerləşdirilməsinə başlayacaqdır. Abunə yazılışı başa çatdıqdan sonra ən geci 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxlərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsinə elanda qeyd olunan tarixdə başlanılacaq və ən geci 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

### 5.3 Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat -

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti***

Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş səhmlərin listinqə daxil edilməsi, abunə yazılışı vasitəsilə səhmlərın ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

***Milli Depozit Mərkəzi***

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

qiymətli kağızların saxlanması və uçotunun aparılması;

qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və “Qiymətli kağızlar bazarı haqqında” Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

***Anderrayter***

“Assist Finance İnvestisiya Şirkəti” ASC İŞ-03 nömrəli, 20 iyun 2023-cü il tarixli lisenziya əsasında saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini abunə yazılışı zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə səhmlərin yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə səhmlər yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil**.**

**5.4 Təklif edilən səhmlərin mülkiyyətçilərinin adı və ünvanı, emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələr barədə məlumat, iştirak edən tərəflər, müqavilənin müddəti –** Emitent ilə hər hansı bir səhmdar arasında müəyyən olunmuş müddət ərzində həmin səhmdara məxsus səhmlərin satılmaması haqqında olan müqavilələri mövcud deyil;

**5.5 Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları (miqdarı və faizi göstərilməklə) –** Səhmdar öz üstünlük hüququndan istifadə etdikdə, səhmdarlar Nigar İsmayıl qızı Mehdiyevaya məxsus 49 829 ədəd səhm 3749 ədəd səhm (74.9872 %) artaraq 53578 ədəd səhmə (74.9867 %) , Rza İsmayıl oğlu Sadiqə məxsus 12 634 ədəd səhm, 951 ədəd səhm (19.0128 %) artaraq 13585 ədəd səhmə (19.0133 %), Tükazban Ağa qızı Mahmudovaya məxsusu 3987 ədəd səhm 300 ədəd səhm (6 %) artaraq 4287 ədəd səhmə (6 %) sahib olacaqlar.

**5.6 Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği –**Səhmlər alınan zaman Emitent və investor tərəfindən hər hansı vergi ödənişi qanunvericiliklə nəzərdə tutulmamışdır.Gələcəkdə bu səhmlər üzrə investora ödəniləcək dividentlər ödəmə mənbəyindən vergidən 2028-ci ilin 1 fevral tarixinədək azaddır. Beləki, Vergi Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslər 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

- Bakı Fond Birjasının səhmlərin alqı-satqı üzrə komisiyası səhmlərin nominal dəyərinin 0.05% (max.500 azn).
- İnvestisiya şirkəti- investisiya xidmətlərinin göstərilməsinə üzrə xidmət haqqı-səhmlərin nominal dəyərinin 0.02%
- Depo hesabının açılması-10 manat
- Bank xərcləri – bank xərcləri yoxdur.

**5.7 Qiymətli kağızların yerləşdirilməsində iştirak edəcək anderrayter barədə məlumat (adı, lisenziyasının nömrəsi, verilmə tarixi) -**

“Assist Finance İnvestisiya Şirkəti” ASC 20 iyun 2023-cü il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 03 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

**5.8 Qiymətli kağızların təklifinin və yerləşdirilməsinin başlama və başa çatma tarixləri**

Hər birinin nominal dəyəri 1000(bir min) manat təşkil edən səhmin təklifi nəzərdə tutulur. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri: Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri “Assist Finance İnvestisiya Şirkəti” ASC tərəfindən Bakı Fond Birjası

QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Mövcud səhmdarlar əlavə buraxılan səhmləri cəmiyyətin nizamnamə kapitalında malik olduqları paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdirlər. Bu üstünlük hüququndan istifadə imkanı barədə bildiriş əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra 5 (beş) iş günü ərzində səhmdar cəmiyyəti tərəfindən sifarişli poçt göndərişi ilə hər bir səhmdara göndəriləcəkdir. Əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ən geci 5 (beş) iş günü ərzində abunə yazılışının başlama vaxtı elan ediləcəkdir (bu zaman mövcud səhmdarların üstünlük hüququndan istifadə etməsi ilə bağlı müəyyən olunmuş müddət tələbi nəzərə alınacaqdır) və abunə yazılışının keçirilməsi müddəti ən geci 5 (beş) iş günü müddətində davam edəcəkdir.

Abunə yazılışı başa çatdıqdan sonra ən geci 5 (beş) iş günü ərzində emitent və yerləşdirməni həyata keçirən anderrayter səhmlərin yerləşdirilməsinə başlayacaqdır. Abunə yazılışı başa çatdıqdan sonra ən geci 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsinə elanda qeyd olunan tarixdə başlanılacaq və ən geci 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

**5.9 Anderrayter tərəfindən təklifin şərtləri barədə məlumatın investorlara təklif zamanı təqdim olunması barədə qeyd -**

Abunə yazılışı dövründə anderrayter oz səlahiyyətləri çərçivəsində potensial investorları emissiya prospekti ilə tanış edir, emissiya şərtlərini onlara izah edir, sifarişlərin verilməsi barədə məlumat verir.

## SƏHMLƏRİN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMATLAR

**6.Emitentin auditorları barədə məlumat:**

**6.1Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İL: | **Auditorun adı:** | **Auditorunünvanı:** | **Auditorun üzv olduğu təşkilat:** |
|---|---|---|---|
| **2020** | Baker Tilly İnternational | Azərbaycan, Bakı AZ1022, C.Məmmədquluzadə küçəsi 102 A. City Point Baku Biznes Mərkəzi 9-cu mərtəbə | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |
| **2021** | Baker Tilly İnternational | Azərbaycan, Bakı AZ1022, C.Məmmədquluzadə küçəsi 102 A. City Point Baku Biznes Mərkəzi 9-cu mərtəbə | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |
| **2022** | Baker Tilly İnternational | Azərbaycan, Bakı AZ1022, C.Məmmədquluzadə küçəsi 102 A. City Point Baku Biznes Mərkəzi 9-cu mərtəbə | Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü |

**6.2.Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə məlumat:** audit dəyişməsi baş verməyib.

**7.Seçilmiş maliyyə məlumatı**

**7.1 Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumat:** Son 3 maliyyə ili ərzində Emitentin aktivləri 356 781 min manatdan 369 155 min manata, kredit portfeli 260 803 min manatdan 268 610 min manata, müştəriləri hesabları 145 566 min manatdan 152 905 min manata yüksəlmişdir.

Emitent 2021-ci ili 824 min manat zərərlə, 2022-ci ili 4 742 min manat zərərlə, 2023-cü ili isə 2 779 min manat xalis zərərlə yekunlaşdırmışdır.

Covid-19 pandemiya dövründən yaranan çağırışların fonunda Emitent ümüumilikdə maliyyə göstəricilərinin sabitliyini təmin edə bilmiş, Mərkəzi Bankın tələb etdiyi məcmu kapital mövqeyinin minimum tələbdən yüksək saxlanılmasına nail olmuşdur. Bu məqsədlə, Emitent 2022-ci ildə 5 milyon manat həcmində subordinasiya borcunun cəlbinə və bu yolla məcmu kapitalının artırılmasına nail olmuşdur.

# ƏSAS MALİYYƏ GÖSTƏRİCİLƏRİ

*(min manatla) Azərbaycan manatı ilə*

| | 31.12.2023* | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| | | | |
| AKTİVLƏR | | | |
| | | | |
| Nağd pul qalıqları | 6 307 | 12 262 | 8 623 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankında qalıqları | 6 762 | 7 946 | 5 763 |
| Müştərilərə kreditlər | 268 610 | 262 250 | 260 803 |
| | | | |
| **Ümumi aktivlər** | **369 155** | **369 389** | **356 781** |
| | | | |
| **Öhdəliklər** | | | |
| Digər borc vəsaitləri | 159 992 | 157 401 | 156 180 |
| Müştəri hesabları | 152 905 | 159 843 | 145 566 |
| | | | |
| **Ümumi öhdəliklər** | **321 791** | **323 840** | **306 470** |
| | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 66 450 | 66 450 | 66 450 |
| Yığılmış zərər | (19 087) | (20 901) | (16 139) |
| | | | |
| **Cəmi Kapital** | **47 363** | **45 549** | **50 311** |
| | | | |
| **Cəmi öhdəliklər və kapital** | **369 155** | **369 389** | **356 781** |
| | | - | - |
| | | | |
| **Xalis faiz gəliri** | **11 246** | **11 208** | **10 855** |
| **Xalis haqq və komissiya gəliri** | **2 066** | **1 618** | **1 719** |
| **Əməliyyat gəlirləri** | **2 822** | **15 329** | **14 972** |
| **İnzibati və digər xərclər** | **(16 091)** | **(17 568)** | **(13 398)** |
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **(2 779)** | **(4 742)** | **(824)** |
| **Mənfəətdən vergilər** | **-** | **(20)** | **(29)** |
| **Xalis mənfəət (zərər)** | **(2 779)** | **(4 762)** | **(853)** |

* Audit olunmayıb.
2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

*(min manatla) Azərbaycan manatı ilə*

| | Səhm kapitalı | Bölüşdürülməmiş mənfəət/ (Yığılmış kəsir) | Cəmi kapital |
|---|---|---|---|
| | | | |
| **31 dekabr 2021-ci il tarixinə balans** | **66 450** | **(16 139)** | **50 311** |
| | | | |
| İl üçün mənfəət | - | (4 762) | (4 762) |
| | | | |
| **31 dekabr 2022-ci il tarixinə balans** | **66 450** | **(20 901)** | **45 549** |
| | 66 450 | (20 901) | 45 549 |
| | | | |
| İl üçün mənfəət | - | (2 779) | (2 779) |
| | | | |
| **31 dekabr 2023*-ci il tarixinə balans** | **66 450** | **(23 680)** | **42 770** |
| | 66 450 | (23 680) | 42 770 |

* Audit olunmayıb.
2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

## 8. EMİTENT BARƏDƏ MƏLUMAT

**8.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** “Bank BTB” Açıq Səhmdar Cəmiyyəti
**8.2.Emitentin dövlət qeydiyyatının rekvizitləri:** 24.02.2010-cu il tarixində dövlət qeydiyyatına alınmışdır, (VÖEN: 1302164881)
**8.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** belə hal olmayıb.
**8.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:** Azərbaycan Respublikası, AZ1025, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, ev 27, (+994012) 499 79 95, info@btb.az, www.btb.az
**8.5.Son üç maliyyə ili ərzində hər bir maliyyə ili üçün emitentin əsas investisiyalarının təsviri (məbləği göstərilməklə):**

- ✓ 2023-ci ildə Maliyyə Nazirliyin istiqrazları 3 591 17. min manat;
- ✓ 2022-ci ildə Mərkəzi Bankın Notları 2 505.26 min manat, Maliyyə Nazirliyin istiqrazları 4 922.84 min manat, SOCAR istiqrazları 3 068.5 min manat;
- ✓ 2021-ci ildə Mərkəzi Bankın Nortları 1 22.31 min manat, SOCAR istiqrazları 2 249.1 min manat.

**8.6. Emitentin cari investisiyalarının təsviri, onların coğrafi bölüşdürülməsi (xarici və daxili) və maliyyələşdirmə üsulu (daxili və xarici)-** Emitentin cari investisiyaları daxili maliyyələşdirmə yolu ilə daxili bazara yönəlmişdir.Daxili bazar üzrə cari investisiyalar aşağıdakı şəkildə müəyyən edilib.

1.Maliyyə Nazirliyin istiqrazları – 6 091.11 min manat (uzun müddətli)

**8.7. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri mövcud deyil.

## 9.Emitentin biznesinin icmalı

**9.1Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə), emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərin əsas kateqoriyalarını göstərərək, emitentin əməliyyatlarının və əsas fəaliyyətlərinin xarakteri ilə bağlı əsas faktorlar və onların təsviri:**
2021-2023-cü illər ərzində

- tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, digər kreditləşdirmə növləri;
- fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- kliring, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
- ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları) buraxılması;
- öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi;
- sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

- qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi;
- tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, digər kreditləşdirmə növləri;
- fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilmişdir.

**9.2. Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:**

- “Visa Business Ultra” kart - hüquqi şəxs olan Müştərinin hesaba köçürdüyü pul vəsaiti ilə hesablaşmalar aparmaq imkanı verən və həmin hesablaşmaları təsbit edən ödəniş kartıdır. Bu kartın aşağıdakı üstünlükləri vardır:

1. Kartın bağlı olduğu cari hesabın valyutası – AZN/ USD/ EUR
2. İlk 3 ay bankın terminallarından nağdlaşdırma - 0%

- “Junior kart” - valideynin ərizəsi əsasında plastik kart ilə bağlı bütün bank əməliyyatları valideynin adına rəsmiləşdirilməsi şərtilə plastik kartın üzərinə (card holder hissəsində) övladının ad və soyadı qeyd edilən ödəniş kartıdır. Bu kartın aşağıdakı üstünlükləri vardır:

1. Yaş həddi – 6 - 16 yaş;
2. Kart balansında qalıq məbləğə illik gəlir – 6 %;
3. Kartın növü – Visa Classic, Visa Gold, Visa Platinum, Visa Infinite.

“Visa Business Ultra” kart və “Junior kart” məhsullarının tətbiqi bankın əməliyyat və komissiya gəlirlərinin artımına səbəb olur.

**9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri və son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) fəaliyyət kateqoriyası və coğrafi amilləri nəzərə alaraq ümumi gəlirlərin qruplaşdırılması –** Bank “BTB” ASC universal bank xidmətləri göstərir, qanunvericilikdə və bank lisenziyasında nəzərdə tutulan bütün xidmətləri təklif edir. Emitent bütün məhsul çeşidləri üzrə bütün bank rəqibləri, o cümlədən oxşar maliyyə xidmətləri göstərən bank olmayan kredit təşkilatları ilə rəqabət aparır. Hazırda bazarda 23 bank və 54 bank olmayan kredit təşkilətları fəaliyyət göstərir. Azərbaycan bank bazarı son illər ərzində sürətlə artsa da, xüsusilə rəqəmsal həllər hesabına bank dövriyyəsi yüksəlsə də, əhalinin və biznes banklaşma səviyyəsi hələ də tam mənimsənilməyib və bazarın artım potensialı yüksək olaraq qalır. Bu çərçivədə, cari və gələcək çağırışları, habelə yeni müştəri təcrübələrinin inkişafını nəzərə alaraq, son illər ərzində Emitent satış nöqtələrinin optimizasiyasını təmin etmiş, rəqabət üstünlüyü yüksək olan məhsul çeşidlərinə və biznes proseslərə fokuslanmış, növbəti strateji dövrdə isə innovativ çağırışları nəzərə alaraq müvafiq transformasiyaları planlaşdırır.

Son 3 maliyyə ili ərzində Emitentin aktivləri 356 781 min manatdan 369 155 min manata, kredit portfeli 260 803 min manatdan 268 610 min manata, müştəriləri hesabları 145 566 min manatdan 152 905 min manata yüksəlmişdir.

Emitent 2021-ci ili 824 min manat zərərlə, 2022-ci ili 4 742 min manat zərərlə, 2023-cü ili isə 2 779 min manat xalis zərərlə yekunlaşdırmışdır. Qeyd edək ki, Emitentin xarici bazarlarda rəqabəti mövcud deyil. Emitentin daxili bazarında 2023-ci il üzrə ümumi gəlirləri 34 616 378 manat olmuşdur ki, bunun da 87%-i faiz gəlirləri, qalan 13%-i isə haqq və komisyon gəlirlərindən

ibarətdir.Emitentin faiz gəlirlərinin 48%-i istehlak, 38%-i biznes, 14%-i isə ipoteka kreditləri seqmenti üzrədir.

2022-ci il 33 083 000 manat olmuşdur ki, bunun da 86%-i faiz gəlirləri, qalan 14%-i isə haqq və komisyon gəlirlərindən ibarətdir.Emitentin faiz gəlirlərinin 47%-i istehlak, 38%-i biznes, 15%-i isə ipoteka kreditləri seqmenti üzrədir.

2021-ci il 31 220 000 manat olmuşdur ki, bunun da 85%-i faiz gəlirləri, qalan 15%-i isə haqq və komisyon gəlirlərindən ibarətdir.Emitentin faiz gəlirlərinin 48%-i istehlak, 37%-i biznes, 15%-i isə ipoteka kreditləri seqmenti üzrədir.

Emitentin gəlirləri Azərbaycan mənbəyindən formalaşır. Emitentin xidmət şəbəkəsi əsasən Bakı şəhərində yerləşib, bundan əlavə Gəncə və Sumqayıt şəhərlərində xidmət nöqtələri mövcuddur. Bankın gəlirlərinin 82%-i Bakı şəhəri üzrədir.

**9.4. Emitentin Biznes İcmalının 4.1-4.3-cü bəndlərində göstərilmiş məlumatlara təsir edən amillər:**

- Makro-iqtisadi göstəricilərin, o cümlədən manatın məzənnəsinin stabil olması;
  - Emitentin kredit portfelinin və onun gəlirliyinin stabil olması

Bank bazarında rəqabət mühitinin sağlam qalması

Emitent tərəfindən yaradılmış ehtiyatların azalması

Bank nəzarətində və vergi siyasətində sərtləşmənin olmaması

**9.5. Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı barədə məlumat:** Emitentin patent və lisenziyalardan, sənaye, kommersiya və ya maliyyə müqavilələrindən və ya istehsal proseslərindən asılılığı mövcud deyil.

**9.6. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:**

Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

## 10 Digər təşkilatlarda iştirak

**10.1. Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** Emitent digər hüquqi şəxslərdə səhmdar və ya payçı deyildir.

**10.2. Emitentin bütün törəmə və digər müəssisələrdə iştirakının payı (faizlə), onların tam adı, olduğu yer:** Emitentin törəmə cəmiyyəti mövcud deyil.

## 11.Emitentin əsas vəsaitləri

**11.1. Emitentin icarəyə verilmiş, mövcud olan və əldə olunması nəzərdə tutulan əsas vəsaitləri:** Emitentin icarəyə verilmiş və əldə olunması nəzərdə tutulan vəsaitləri mövcud deyildir.

**Emitentin 30.12.2023-cü il tarixinə mövcud olan əsas vəsaitləri:**

Bina və qurğular – 29 870 160.43 manat

Torpaq – 17 532 292.13 manat

İnvestisiya mülkiyyəti – 11 263 962.58 manat

Ödənilməmiş borc müqabilində balansa götürülmüş əmlak – 861 581.25 manat

Mebel kompyuter və dig. – 814 033.62 manat

Qeyri əsas vəsaitlər – 319 503.33 manat

**11.2.Əsas vəsaitlərin istifadəsinə təsir edə biləcək ətraf mühitlə bağlı olan amillərin təsviri:** Əsas vəsaitlərin istifadəsinə təsir göstərə bilən ətraf mühit amilləri ümumiyyətlə təbii hadisələr və insan fəaliyyəti nəticəsində yaranır. Bu amillər xüsusilə Emitentin bankomatları və depozitləri kimi maliyyə institutlarının aktivlərinin təhlükəsizliyinə və davamlılığına təsir göstərə bilər. Nəticədə əsas fondlardan səmərəli istifadə etmək üçün ekoloji amillərin nəzərə alınması vacibdir. Emitentlər təbii fəlakətlərə və texnogen hadisələrə hazır olmalı, təhlükəsizlik tədbirləri görməli və zəruri sığorta mühafizəsini təmin etməlidirlər. Bu strategiyalar maliyyə institutlarının əməliyyat davamlılığını və təhlükəsizliyini gücləndirə bilər.

## 12.Emitentin maliyyə və əməliyyat nəticələrinin icmalı

### 12.1.Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) mənfəət və zərər göstəriciləri:

**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT**

*(min manatla) Azərbaycan manatı ilə*

| | 31.12.2023* | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| | | | |
| **Xalis faiz gəliri** | **11 246** | **11 208** | **10 855** |
| **Xalis haqq və komissiya gəliri** | **2 066** | **1 618** | **1 719** |
| **Əməliyyat gəlirləri** | **2 822** | **15 329** | **14 972** |
| **İnzibati və digər xərclər** | **(16 091)** | **(17 568)** | **(13 398)** |
| **Vergilər ödənilənədək mənfəət (zərər)** | **(2 779)** | **(4 742)** | **(824)** |
| **Mənfəətdən vergilər** | **-** | **(20)** | **(29)** |
| **Xalis mənfəət (zərər)** | **(2 779)** | **(4 762)** | **(853)** |

* Audit olunmayıb.
2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

### 12.2.Emitentin maliyyə vəziyyətində dəyişikliklər baş verdiyi halda həmin dəyişikliklər və onlar barədə məlumat:

Son 3 maliyyə ili ərzində Emitentin aktivləri 362 062 min manatdan 369 155 min manata, kredit portfeli 251 054 min manatdan 268 610 min manata, müştərilərinin müddətli depozitləri 128 867 min manatdan 142 733 min manata yüksəlmişdir.

Bankın aktivləri və kredit portfelin artımı Bankın strateji hədəflərinə uyğun olaraq müvafiq segmentlərdə satış planının icrası ilə bağlıdır.

Emitent 2021-ci ili 824 min manat zərərlə, 2022-ci ili 4 742 min manat zərərlə, 2023-cü ili isə 2 779 min manat xalis zərərlə yekunlaşdırmışdır. Bankın zərərlə fəaliyyət göstərməsinə səbəb aktivlərdən mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatlar və gözlənilməz fəaliyyətdən və əvvəlki dövrlərin uçot düzəlişləridir.

Covid-19 pandemiya dövründən yaranan çağırışların fonunda Emitent ümüumilikdə maliyyə göstəricilərinin sabitliyini təmin edə bilmiş, Mərkəzi Bankın tələb etdiyi məcmu kapital mövqeyinin minimum tələbdən yüksək saxlanılmasına nail olmuşdur. Bu məqsədlə, Emitent 2022-ci ildə 5 milyon manat həcmində subordinasiya borcunun cəlbinə və bu yolla məcmu kapitalının artırılmasına nail olmuşdur.

**12.3.Emitentin əməliyyatlardan gələn gəlirinə təsir edən amillər və gəlirin bundan nə qədər asılı olduğunu göstərən faktorlar:** Ölkədəki ÜDM-in azalması tempinin səngiməsi və real iqtisadiyyatın canlanması müşahidə edilməkdədir. Azərbaycan manatının və eləcə də ticarət partnyorlarının məzənnədəki korreksiyalar nəticəsində ölkədə inflyasiya idxalı qiymətlərin artımına səbəb olmuşdur. Bununla belə, istehsal olunan mal və göstərilən xidmətlərin dünya bazarında rəqabətliliyi artmış, ölkənin ixrac potensialının artımı yönündə struktural islahatlar aparılmışdır. Bunlar Emitentin iqtisadiyyatda vasitəçiliyini artırmış və gəlirlərinə müsbət təsir etmişdir. Dövlət istiqrazları üzrə faizlərin artması həmçinin səhm və istiqraz emissiyalarının artmasına maraq yaranması gəlirlərin artmasına müsbət təsirini göstərir.

Emitentin göstərdiyi hər bir xidmət qiymətli kağızlarla bağlı əməliyyatlardır və aşağıdakı risklər emitentin gəlirlərinə təsir edən amillərdir.

-Faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;

- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;

- İnflyasiya riski- pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk; - Əməliyyat riski- daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;

- Kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;

- Likvidlik riski- müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;

- Təbii risk- insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);

- Valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.

**12.4.Xalis satışlarda və ya gəlirlərdə dəyişikliklər maliyyə hesabatlarında açıqlandığı halda bu dəyişikliklərin səbəblərinin təsviri:** 2022-ci il ilə müqayisədə 2023-ci ildə kredit portfeli 15 072 134 manat artmışdır. Buda öz növbəsində faiz gəlirlərini 3 213 471 manat artırmış və ümumilikdə faiz gəlirləri 30 005 204 manata çatmışdır.

**12.5.İqtisadi, fiskal, monetar, siyasi və digər amillərin emitentin əməliyyatlarına təsir etmiş və ya birbaşa və ya dolayı yolla təsir edə bilən faktorlar barədə məlumat** : 2024-cü il bank sektoru üçün perspektivli dövr olması gözlənilməktədir. Nəzərdə tutulan hadisələr arasında problemli kreditlərin azalması, likvidliyin artması və kapitallaşma səviyyəsinin artması maliyyə sabitliyi və iqtisadi inkişaf istiqamətində mühüm addımlardır.Problemli kreditlərin azaldılması bank sektorunun sağlam struktura nail olmasını təmin etməklə iqtisadiyyatın dayanıqlığını artıra bilər. Bu, maliyyə institutlarına etibarlarını gücləndirməklə investorların və istehlakçıların etimadını qazanmağa kömək edə bilər.Likvidliyin artırılması banklara daha çox vəsait təqdim etmək imkanı verməklə iqtisadiyyatın canlanmasına töhfə verə bilər. Bu, bizneslərə sərmayə qoymaqda və böyümə imkanlarından istifadə etməkdə daha çox dəstək almağa imkan verə bilər.Kapitallaşma səviyyəsinin artırılması bankların böhranlara davamlılığını gücləndirə və maliyyə sistemində sabitliyin təmin edilməsində mühüm rol oynaya bilər. Bu, sektora inamın artmasına və kapital bazarlarının daha sağlam işləməsinə kömək edə bilər.Bankların likvidlik alətlərinin genişləndirilməsi və bank sektoru üçün ümumi strategiya xəritəsinin hazırlanması kimi tədbirlər sektorun daha effektiv və dayanıqlı fəaliyyət göstərməsinə şərait yarada bilər..Bütövlükdə iqtisadi və sosial inkişaf hədəflərinə uyğun olaraq atılan bu addımlar 2024-2027-ci illər proqnoz dövründə bank sisteminin kapitallaşmasını artırmaqla maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması məqsədi daşıyır. Kredit məlumatlarının mübadiləsi, sistemin təkmilləşdirilməsi kimi işlər maliyyə infrastrukturunun daha güclü və şəffaf olmasına davam edəcək. Bu tədbirlər ölkənin iqtisadi inkişafına töhfə verməklə maliyyə sisteminin sabitliyini gücləndirə bilər.

## 13.Emitentin kapital resursları.

### 13.1.Emitentin kapital qoyuluşları (qısa və uzun müddətli)

*(min manatla) Azərbaycan manatı ilə*

| Tarix | 2023* | 2022 | 2021 |
|---|---|---|---|
| **Qısa müddətli** | **0.00** | **0.00** | **0.00** |
| **Uzun müddətli** | **47 363.31** | **45 549.00** | **50 311.00** |
| Qiymətli kağızlar | 47 363.31 | 45 549.00 | 50 311.00 |

* Audit olunmayıb.

## 13.2 Emitentin pul vəsaitlərinin hərəkətinin mənbələrinin və məbləğlərinin izahı və təsviri

*(min manatla) Azərbaycan manatı ilə*

| | 2023* | 2022 | 2021 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərin hərəkəti** | | | |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **(3 020)** | **9 119** | **(34 144)** |
| | | | |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitlərinin hərəkəti** | | | |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **(5 716)** | **(8 258)** | **4 225** |
| | | | |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərin hərəkəti** | | | |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **4 201** | **5 187** | **12 951** |
| | | | |
| **Pul vəsaitlərin ekvivalentində xalis (azalma)/artma** | **(4 548)** | **5 048** | **(16 968)** |
| Valyuta mənzələrində dəyişikliklərin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | (13) | (39) | (71) |
| Dövrün əvvəlinə pul vəsaitlərin və onların ekvivalentləri | 17 008 | 14 347 | 31 425 |
| **Dövrün sonuna pul vəsaitlərin və onların ekvivalentləri** | **12 460** | **20 395** | **14 386** |

* Audit olunmayıb.

2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

2021-ci il Əməliyyat fəaliyyati üzrə pul hərəkəri əsasən müştərilərə verilən 37 mln. manat verilmiş kreditlər üzrə olmuşdur. İnvestisiya fəaliyyəti üzrə pul hərəkəti İnvestisiya qiymətli kağızların daxilolmararı hesabına olmuşdur. Maliyyə fəaliyyəti üzrə pul hərəkəti Digər borc daxilolmalar üzrə 37 mln manat olmuşdur.

2022-ci Əməliyyat fəaliyyati üzrə pul hərəkəri müsbət olması əsasən müştərin depozitləri səbəb olmuşdur 14 mln. manat. İnvestisiya fəaliyyəti üzrə pul hərəkəti İnvestisiya qiymətli kağızların satın alınması hesabına olmuşdur. Maliyyə fəaliyyəti üzrə pul hərəkəti Digər borc daxilolmalar üzrə 18 mln. manat olmuşdur.

2023-ci Əməliyyat fəaliyyati üzrə pul hərəkəri əsasən müştərilərə verilən 15 mln. manat verilmiş kreditlər üzrə olmuşdur. İnvestisiya fəaliyyəti üzrə pul hərəkəti İnvestisiya qiymətli kağızların satın alınması hesabına olmuşdur. Maliyyə fəaliyyəti üzrə pul hərəkəti Digər borc daxilolmalar üzrə 4.2 mln. manat olmuşdur.

**13.3.Emitentin borclanma ehtiyacları və maliyyələşmə strukturu barədə məlumat-** Hal-hazırda emitentin borclanma ehtiyacları mövcud deyil. Lakin emitentin borclanma ehtiyacları yarandığı təqdirdə, emitent qanunla nəzərdə tutulan bütün vasitələrdən istifadə etməklə, vəsaitləri cəlb edə bilər.

**13.4.Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlərlə əlaqəli məlumat -** Emitentin əməliyyatlarına birbaşa və ya dolayı yolla təsir etmiş və ya təsir edə bilən kapital qoyuluşlarının istifadəsinə dair hər hansı bir məhdudiyyətlər Azərbaycan Respublikasının Banklar haqqında qanunun 22.2-ci, 22.3-cü,30-cu və 33-cü maddələrində təsvir olunmuşdur

Emitent; Qanunun 22.2-ci maddəsinə əsasən Bank, kapitalına mühüm iştirak payı olan şəxsin başqa hüquqi şəxsin kapitalında mühüm iştirak paymı əldə etməsindən və ya artırmasından xəbər tutan kimi bu barədə maliyyə bazarlarına nəzarət orqanına yazılı bildiriş göndərməlidir.

Qanunun 22.3-cü maddəsinə əsasən Bank, kapitalında mühüm iştirak payı olan hüquqi şəxsin kapitalında hər hansı şəxsin mühüm iştirak payını əldə etməsindən və ya artırmasından xəbər tutan kimi bu barədə maliyyə bazarlarına nəzarət orqanına yazılı bildiriş göndərməlidir.

Qanunun 30.1-ci maddəsinə əsasən Bankın başqa hüquqi şəxsdə iştirak payı əldə etməsi aşağıdakı hallardan birinə səbəb olarsa, bank həmin payı əldə etmək hüququna malik deyildir:

Qanunun 30.1.1.-ci maddəsinə əsasən iştirak payının balans məbləği bankın məcmu kapitalının 10 faizindən çox olduqda;

Qanunun 30.1.2-ci maddəsinə əsasən bankın bütün bu cür iştirak paylarının məcmu balans məbləği bankın məcmu kapitalının 40 faizindən çox olduqda. Qanunun 32-ci maddəsində icazə verilmiş fəaliyyət növləri istisna olmaqla, heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməz.

**13.5.Bu prospektin 8.7 və 11.1 bəndlərində qeyd olunmuş öhdəlikləri yerinə yetirmək üçün tələb olunan vəsaitlərin mənbələri barədə məlumat –** Emitentin bu Emissiya Prospektinin I hissəsinin 8.7-cı və 11.1-ci bəndində qeyd olunmuş öhdəlikləri mövcud deyildir.

**14.Tədqiqatlar, lisenziyalar və patentlər**

**14.1.** Son üç maliyyə ili ərzində emitentin hesabına aparılmış tədqiqat və inkişaf fəaliyyətlərinə sərf olunmuş məbləğ daxil olmaqla, emitentin tədqiqatları, patentləri, əqli mülkiyyət obyektləri və lisenziyaları barədə məlumat:mövcud deyil.

**15.Tendensiyalar barədə məlumat:**

**15.1.Cari maliyyə ilinin əvvəlindən səhm buraxılışı haqqında qərarın qəbul edilməsi tarixinədək emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə (istehsalat, satışların həcmi və mal-material ehtiyatları, xərclər və satış qiymətləri) müşahidə olunan tendensiyalar –**

2024-cü ildən başlayaraq Emitentin fəaliyyət göstərdiyi iqtisadi sahədə əsas tendensiyalar rəqabətin daha da kəskinləşməsi, faiz dərəcələrinin azalması, nağdsız dövriyyənin artımı, texnoloji yeniliklərin və həllərin tətbiq dairəsinin genişlənməsi müşahidə olunur.

Bununla yanaşı, cari ildən etibarən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti tərəfindən təsdiq edilmiş “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası” icrası başlamışdır. Strategiya ölkəmizdə sığorta, kapital bazarları və ödəniş sektorlarının inkişafı, habelə bank sektorunun dayanıqlığının daha da gücləndirilməsi kimi prioritetləri ehtiva edir. Burada maliyyə inklüzivliyinin genişləndirilməsi, maliyyə xidmətlərinin əhatəliliyinin artırılması və maliyyə alətlərinin şaxələndirilməsi, sektorda səmərəliliyin yüksəldilməsi, korporativ idarəetmənin tətbiqi, habelə şəffaflıq və dayanıqlığıngücləndirilməsi kimi strateji məqsədlər öz əksini tapır. Strategiya sənədi həmçinin hər sektorun ehtimal olunan bazar potensialını, Mərkəzi Bankın müvafiq keyfiyyət tələblərini və risk əsaslı nəzarət mexanizmlərini, rəqəmsal maliyyə, dayanıqlı maliyyə, peşəkar inkişaf və əhalinin maliyyə biliklərinin artırılması kimi istiqamətləri müəyyən edir.

**15.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

2024-cü il ərzində ölkədə ÜDM-in real ifadədə artımının davam etməsi, inflyasiyanın Mərkəzi Bankın hədəf çərçivəsinə uyğunlaşması və digər makto-iqtisadi tendensiyalar müşahidə olunur. Bu tendensiyalar stabil makro-iqtisadi fon yaratmaqla, bank sektoruna, o cümlədən Emitentə satış və gəlir hədəflərinə çatmaqda yardımçı olacaqdır. Bununla belə, neft-qaz məhsullarının qiymətlərində hət hansı kəskin dəyişiklik, nəticədə milli valyutanın məzənnəsinə təzyiqlər, habelə ölkədə faiz dərəcələrinin kəskin azalması ehtmalları müəyyən qeyir-müəyyənlik yaradır və onların Emintentin fəaliyyətinə təsiri əhəmiyyətlidir..

**16. Gəlir proqnozu -** Mövcud deyil

**17. Emitentin təsisçiləri, idarəetmə və nəzarət orqanları**

**17.1. Emitent 5 ildən az müddətdə mövcud olduğu təqdirdə, hər birinin soyadı, adı, atasının adı və tutduğu vəzifələr göstərilməklə onun təsisçilərə haqqında məlumat-** emitent 5 ildən artıq fəaliyyət göstərir.

**17.2. Emitentin idarəetmə və nəzarət orqanlarının üzvü olan hər bir şəxs barədə aşağıdakı məlumatlar:**

**Emitentin təsisçiləri haqqında məlumat:**

| Adı, soyadı, atasının adı | Hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə- | Təhsil | Nizamnamə Kapitalında payı və ya emitentin opsionu | Məhkumluq |
|---|---|---|---|---|
| Mehdiyeva Nigar İsmayıl qızı | Səhmdar | Ali | 74.9872% | Məhkumluğu yoxdur |
| Sadiq Rza İsmayıl oğlu | Səhmdar | Ali | 19.0128% | Məhkumluğu yoxdur |
| Tükazban Ağa qızı Mahmudova | Səhmdar | Ali | 6 % | Məhkumluğu yoxdur |

**Müşahidə Şurasının üzvləri haqqında məlumat**

| Adı, soyadı, atasının adı | Hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə- | Təhsil | Nizamnamə Kapitalında payı və ya emitentin opsionu | Məhkumluq |
|---|---|---|---|---|
| Sadiq Rza İsmayıl oğlu | Müşahidə Şurasının sədri | Ali | 19.0128 % | Məhkumluğu yoxdur |
| Hümbətov İkram Müzəffər oğlu | Müşahidə Şurasının üzvü | Ali | Payı yoxdur | Məhkumluğu yoxdur |

**İdarə Heyətinin üzvləri haqqında məlumat**

| Adı, soyadı, atasının adı | Hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə- | Təhsil | Nizamnamə Kapitalında payı və ya emitentin opsionu | Məhkumluq |
|---|---|---|---|---|
| Hüseynov Eldəniz Ramiz oğlu | İdarə Heyətinin sədrinin birinci müavini, İdarə Heyətinin sədri v.i.e. | Ali | Payı yoxdur | Məhkumluğu yoxdur |
| Yusifov Zaur Ağa Zeynal oğlu | İdarə Heyəti sədrinin müavini | Ali | Payı yoxdur | Məhkumluğu yoxdur |

**Audit Komitəsinin üzvləri haqqında məlumat**

| Adı, soyadı, atasının adı | Hazırda tutduğu vəzifə və son beş il ərzində bu və ya digər hüquqi şəxslərdə tutduğu vəzifə- | Təhsil | Nizamnamə Kapitalında payı və ya emitentin opsionu | Məhkumluq |
|---|---|---|---|---|
| Abdullayev Rövşən Müslüm oğlu | Audit Komitəsinin sədri | Ali | Payı yoxdur | Məhkumluğu yoxdur |
| Hüseynov Ramin Şəhadət oğlu | Audit Komitəsinin üzvü | Ali | Payı yoxdur | Məhkumluğu yoxdur |
| Xəlilov Hikmət Hüseyn oğlu | Audit Komitəsinin üzvü | Ali | Payı yoxdur | Məhkumluğu yoxdur |

**17.2.1. Bu şəxslər arasında olan hər hansı yaxın qohumluğun mövcudluğu haqqında məlumat**- Mehdiyeva Nigar İsmayıl oğlu və Rza Sadiq İsmayıl oğlu bacı-qardaşdır.

**17.2.2.Son beş il ərzində şəxsin vəzifə saxtakarlığı ilə bağlı məhkumluğun olub-olmaması haqqında məlumat**- məhkumluq yoxdur.

**17.2.3 . Şəxsin hər hansı bir hüquqi şəxsin idarə edilməsində rəhbər vəzifə tutduğu zaman həmin hüquqi şəxsin ləğv olunması, müflis elan olunması və ya müflisləşmə prosesin başlanması haqqında məlumat**-mövcud deyil.

**17.2.4 . şəxsin xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə məlumat**- Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

**18.Emitentin idarəedilməsində iştirak edən şəxslərin mükafatlandırılması, imtiyazları və digər kompensasiyaları**

**18.1Bu Prospektin 17.2-ci bəndində göstərilən şəxslərə maliyyə ilinin yekunu ilə əlaqədar ödənilmiş mükafatların (hər hansı şərti və ya təxirə salınmış kompensasiyalar da daxil olmaqla) məbləği, emitent və onun törəmə şirkətləri tərəfindən həmin şəxslərə göstərilən xidmətlər-** mükafatlandırma nəzərdə tutulmayıb.

**18.2.Kompensasiya və ya yardımlar vermək məqsədilə emitent və ya emitentin törəmə müəssisələri tərəfindən ayrılmış məbləğlər:** emitentin törəmə cəmiyyəti mövcud deyi

**19.İdarə heyətinin işgüzar praktikası**

**19.1.Maliyyə ilinin nəticələrinə əsasən bu Prospektin 17.2-ci bəndində göstərilən şəxslər haqqında aşağıdakı məlumatlar:**

**cari vəzifədə xidmət etdiyi müddət və səlahiyyət müddətinin başa çatma tarixi** –

**Müşahidə Şurasının üzvlərinin səlahiyyət müddətləri:**

| Adı, soyadı, atasının adı | Səlahiyyət müddətinin başlama tarixi | Səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|
| Sadiq Rza İsmayıl oğlu | 01.12.2023 | 01.12.2026 |
| Hümbətov İkram Müzəffər oğlu | 01.12.2023 | 01.12.2026 |

**İdarə Heyətinin üzvlərinin səlahiyyət müddətləri:**

| Adı, soyadı, atasının adı | Səlahiyyət müddətinin başlama tarixi | Səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|
| Hüseynov Eldəniz Ramiz oğlu | 01.12.2023 | 01.12.2026 |
| Yusifov Zaur Ağa Zeynal oğlu | 03.03.2023 | 03.03.2026 |

**Audit Komitəsinin üzvlərinin səlahiyyət müddətləri:**

| Adı, soyadı, atasının adı | Səlahiyyət müddətinin başlama tarixi | Səlahiyyət müddətinin bitmə tarixi |
|---|---|---|
| Abdullayev Rövşən Müslüm oğlu | 13.11.2023 | 13.11.2026 |
| Xəlilov Hikmət Hüseyn oğlu | 13.11.2023 | 13.11.2026 |
| Hüseynov Ramin Şəhadət oğlu | 17.01.2024 | 17.01..2027 |

**19.1.1.səlahiyyətlərinə xitam verilməsi ilə bağlı müavinət vermək üçün emitent və ya onun törəmə müəssisələri ilə inzibati, idarəetmə və ya nəzarət orqanlarının xidmət müqavilələri barədə məlumat-** mövcud deyil.

**19.2.Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

**Audit Komitəsinin tərkibi:**

***Audit Komitəsinin sədri -*** *Abdullayev Rövşən Müslüm oğlu*
***Audit Komitəsinin üzvü*** *– Hüseynov Ramin Şəhadət oğlu*
***Audit Komitəsinin üzvü*** *– Xəlilov Hikmət Hüseyn oğlu*

*Audit Komitasinin səlahiyyətləri:*

- *Audit Komitasinin aşağıdaki hüquq va vəzifələri var:*

- *Bankın audit siyasətini və strategiyasını müəyyən etməlidir;*
- *Daxili audit planlarını təsdiq etməli, müvafıq sahələrdə daxili auditi aparacaq Daxili audit departamentinin əməkdaşlarının sayını müəyyən etməli, daxili audit nəzarətini təşkil etməli və daxili audit departamentinin fəaliyyətinə nəzarəti həyata keçirməlidir;*
- *Kənar auditin təyin edilməsi ilə əlaqədar Müşahidə Şurasına təkliflər verməlidir;*
- *Kənar auditlə birgə işi təşkil etməli, audit işi planları və kənar auditorun tövsiyələri ilə tanış olmalı, auditin nəticə va tövsiyələrinin həyata keçirilməsinə yardım etməlidir;*
- *Bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr yaratmalıdır;*
- *Kənar auditordan audit zamanı aşkar olunan mühüm faktlar və hadisələr haqqında məlumatın dərhal ona verməsini tələb etməlidir;*
- *Kənar auditor, İdare Heyəti və Bankın aidiyyati struktur bölmələri ilə birlikdə kənar auditorun hesabatını təhlil və müzakirə etməli, çatışmazlıqların va pozuntuların aradan qaldırılması üçün tədbirlər planının hazırlanması üzrə təkliflar verməlidir;*
- *Zərurət yarandıqda mühüm məsələlərin müzakira edilməsi məqsədi ilə maliyya bazarlarına nəzarət orqanının, bankın digər idarəetmə orqanlarının və kənar auditorun iştirakı ilə görüşlərin keçirilməsini təşkil etməlidir;*
- *Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahida Şurasına təkliflər vərməlidir;*
- *Əmliyyatlarla bağlı vəzifələrin və məsuliyyətin bölüşdürülməsinin və əməliyyatlar üzrə ikili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər verə bilər;*
- *Daxili audit departamentinin büdcəsi, daxili auditorların əmək haqqı məbləğləri, karyera inkişafı, işdən kənarlaşdırılması va ya azad olunması, habelə mükafatlandırılması barədə bankın Müşahida Şurasına taəliflər verməlidir;*
- *Bankdaxili nəzarətin vəziyyətinin Bankın reqlamentina, Azarbaycan Respublikasının qanunvericiliyinə və maliyya bazarlarına nəzarət orqanının normativ xarakterli aktlarına, habela Bankın fəaliyyətinin Strateji Plana (Biznes Plana) uyğunluğunun yoxlanılmasına dair audit hesabatlarını, habela auditin müstəqilliyini və onun nəticəsinin əsaslandırılmasını qiymətləndirməli və təsdiq etməli, daxili audit yoxlamasının nəticələrini, rəy, təklif və tövsiyələrini Müşahide Şurasına təqdim etmeli və birgə təhlil etməlidir. Aşkar edilmiş səhvlərin, nöqsanların, uygunsuzluqların və pozuntuların aradan qaldırılması barədə Müşahida Şurasına təkliflər verməlidir;*
- *Səhmdarların Ümumİ Yığıncağının, Müşahida Şurasının və İdarə Heyətinin qəbul etdiyi Bankın fəaliyyəti ilə bağlı bütün qərarlarla tanış ola bilar;*
- *İdarə Heyətinin və Müşahide Şurasının İclaslarında səs hüququna malik olmadan iştirak edə bilər;*
- *Səhmdarların növbədənkənar Ümumi Yığıncağının çağırılmasını tələb edə bilər;*
- *Audit Komitəsi Bankın aşağıdakı sahələrdə fəaliyyətinin yoxlanılmasını, qiymətləndirilməsini və müvafiq hesabatların verilməsini Daxili audit departamentindən tələb edə bilər:*
- *Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə və maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktlarına və göstərişlərinə riayət olunması;*
- *Risklərin tənzimlənməsi və idarə edilməsi;*
- *Daxili nəzarət sisteminin mövcud olması;*
- *Yeni bank əməliyyətlərinin, sistemlərinin və proseslerinin hazırlanmasında və tətbiqində keyfiyyət prosedurları;*
- *Bank aktivlarinin qorunması üzrə sistem və prosedurlar;*
- *Uçot məlumatlarının adekvatlığnı və düzgünlüyünü təmin etmək üçün sistem və prosedurlar;*

- *Bankın fəaliyyətinin daxili auditinin keçirilməsi üçün Səhmdarların ümumi yığıncağı və ya Müşahidə Şurası qarşısında təşəbbüs qaldıra bilər.*
- *Daxili audit departamentinin Əsasnaməsi ilə bağlı təklifləri Müşahidə Şurasına təqdim etməlidir;*
- *Daxili audit departamentinin direktoru və əməkdaşlarının vəzifə təlimatlarını təsdiq etməli, nəzarət sisteminin təkmilləşdirilməsi üzrə tövsiyələr verməlidir;*
- *Daxili audit departamentinin əməkdaşlarının səmrəliliyini və peşə yararlığını nəzərdən keçirməlidir;*
- *Kənar auditorların faaliyyatini nəzərdən keçirməli, onların müstəqilliyini təmin etməlidir;*
- *Nəzarət sistemlərinin yaradılması və tətbiq edilməsi, daxili nəzarətin əhəmiyyətliyinə, risklərin idarə edilməsinə, əməliyyat riskləri daxil olmaqla onların minimallaşdırılmasına önəm verməklə, nəzarət sistemlərinin təkmilləşdirilməsi üzrə tövsiyələr verməlidir;*
- *Bankın ümumi fəaliyyətində mövcud olan və yarana biləcək risklər üzrə daima Müşahidə Şurasını məlumatlandırmalıdır;*
- *Azarbaycan Respublikasının qanunvericiliyi və maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları ilə nəzərdə tutulmuş hesabatları Müşahida Şurasına təqdim etməlidir;*

*Azarbaycan Respublikasının qanunvericiliyi və maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirir və vəzifələri icra edir.*

**Mükafatlandırma Komitəsinin üzvləri haqqında məlumat:**

***Mükafatlandırma Komitəsinin sədri –*** *Sadiq Rza İsmayıl oğlu*
***Mükafatlandırma Komitəsinin üzvü –*** *Hüseynov Eldəniz Ramiz oğlu*

*MK-nın səlahiyyətləri və vəzifələri:*

- *MK Bankın İdarə Heyətindən asılı olmayan, özünün fəaliyyət sahəsinə aid olan məsələlər üzrə müstəqil qərar qəbul edən kollegial organdır. MK Bankın Müşəhida Şurası qarşısında hesabat verir.*
- *MK aşağıdakı səlahiyyətlərə və vəzifələrə malikdir:*
- *Bankın strateji planı, bank daxili siyasət va qaydalar, idarəetma orqanlarının insan resurslarının və risklərin idarə edilməsi üzrə bütün növ qərar, əmr və sərəncamlarını əldə etmək;*
- *Ona verilmiş səlahiyyət daxilində Bankın İdarə Heyəti və funksional struktur bölmalarinin qiymatlandirilmasi ve bankdaxili qaydalara əsasən mükafatlandırılması barədə qərarlar qəbul etmək;*
- *Bankın uzunmüddətli fəaliyyət nəticələrinə əsaslanan və strateji hədəfləri nail olmağa yönəlmiş, aşağıda adları göstərilən vəzifə üzrə mükafatların verilməsi məsələrini tənzim edən mükafatlandırma siyasətini müəyyənləşdirmək təsdiq üçün Müşahidə Şurasına təqdim etmək:*

a) *Bankın İdarə Heyeti üzvlərinə - Bankın ümumi fəaliyyətinin nəticələrinə görə;*

b) *daxili audit struktur bölməsinin rəhbəri va əməkdaşlarına nəzarətin həyata keçirilməsinin səmərəliyinə görə;*

c) *Bankda risklərin idarə olunması funksiyasını həyata keçirən struktur bölmənin rəhbərinə və digər əməkdaşlarına — risklərin idarə olunmasının səmərəliyinə görə;*

*ç) bank xidmətlərinin və mahsullarının birbaşa satışını hayata keçirən struktur bölmələrinin (pərakəndə və korporativ bank xidmətləri, xəzinadarlıq) rəhbərlarinə və digər əməkdaşlarına — onların Banka gəlir gətirməyə yönəlmiş risk-osaslı fəaliyyətlərinin nəticələrinə görə;*

d) *bank fəaliyyətinin həyata keçirilməsini təmin edən digər struktur bölmələrinin (məsələn: hüquq, insan resursları, kreditlərə nəzarət, təhlükəsizlik, informasiya texnologiyaları va başqaları) rəhbərlərinə*

*və digər əməkdaşlarına — onların Bankın fəaliyyətinin həyata keçirilməsinin təmin olunmasında iştirakı ədalətli şəkildə nəzərə alınmaqla;*

- *Mükafatlandırma siyasətinin Bankın mənafeyinə zidd olmamasını təmin etmak, Bankın üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli perspektivda gəlir əldə edilməsinə yol verməmək;*
- *Mükafaıtlandırma siyasətinin tətbiqi ilə bağlı Bankda daxili prosedurların hazırlanması zamanı aidiyyati üzrə rəy bildirmək və bu prosedurların Bankda risklərin idarə edilməsi qaydalarına uyğunluğuna nəzarət etmək;*
- *Mükafatlandırma prosesinə nəzarət etmək, o cümlədən ildə azı bir dəfə Risk Komitəsi ilə birlikdə mükafatlandırma sisteminin səmərəliyini qiymətləndirmək;*
- *Mükafatlandırmanın həcmi (mükafat fondu) barədə Müşahidə Şurasına təkliflər vermek;*
- *Müşahidə Şurasına Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzclərinə, habelə bu Əsasnamənin "b" yarımbəndində göstərilən əməkdaşların Bankın illik fəaliyyatinin nəticələrinə görə mükafatlandırılmasına dair tövsiyyəlar vermək;*
- *MK Bankın Səhmdarlarının Ümumi Yığıncağının və ya Müşahidə Şurasının ona həvalə edilmiş digər səlahiyyətlərini həyata keçirə bilər.*

**19.3.Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin İdarəetmə standartları Mərkəzi Bankın “Banklarda korporativ idarəetmə Standartları” qərarına uyğundur.

**20.Emitentin işçi heyəti**

**20.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) və səhm buraxılışı haqqında qərar qəbul edilənə qədər olan dövr müddətində emitentin müvəqqəti və daimi işçilərin sayını göstərməklə işçilərinin sayı:**

- Yanvar 2022- ci il 263 nəfər
- Yanvar 2023-ci il 264 nəfər
- Yanvar 2024- cü il 255 nəfər

**20.2. İşçilərin emitentin nizamnamə kapitalında iştirakı-** İşçilərin emitentin nizamnamə kapitalında iştirakı yoxdur.

**20.3. Emitentin nizamnamə kapitalına işçiləri cəlb etmək üçün proqramlar haqqında məlumat –** mövcud deyil.

**21.Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar**

**21.1. Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

Mehdiyeva Nigar İsmayıl qızı - 49 829 ədəd adi adlı sənədsiz səhm, 74.9872% paya malikdir.
Ünvan: Bakı şəhəri, Rəşid Behbudov küçəsi ev 59, mənzil 27
Vətəndaşlığı: Azərbaycanlı

Sadiq Rza İsmayıl oğlu - 12 634 ədəd adi adlı sənədsiz səhm, 19.0128% paya malikdir.
Ünvan: Bakı şəhəri, İ.Qutqaşınlı küçəsi ev 9, mənzil 73
Vətəndaşlığı: Azərbaycanlı

**21.2. Mühüm iştirak payına sahib olan səhmdarların malik olduğu səhmlər üzrə səs hüquqları haqqında məlumat-** Səhmdarların ümumi yığıncağında səsvermə "bir səsli səhm — bir səsdir" prinsipi əsasında həyata keçirilir. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

**21.3. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:**
Mühüm iştirak payının sahibi Emitentə nəzarəti emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir.

Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan İştirakçılar iştirak etdikdə səlahiyyətli sayılır. Ümumi yığıncaqlar arası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti səhmdarların ümumi yığıncağı tərəfindən təyin edilmiş Müşahidə Şurası həyata keçirir.

**21.4. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Emitentin Nizamnaməsinə əsasən, mühüm iştirak payına sahib olan səhmdarlar səhmdarların reyestrində onlara dair daxil edilmiş məlumatların dəyişilməsi barədə emitentə on gün ərzində yazılı bildiriş verməlidirlər.

**22.Aidiyyəti şəxslərlə əməliyyatlar**

**22.1. Son üç maliyyə ili ərzində emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri barədə məlumat (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq tərtib edilmiş məlumat)** – Emitentin aidiyyəti şəxslərlə bağlanmış müqavilələri mövcud deyildir.

## 23.Emitentin maliyyə məlumatları

## 23.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları-

# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(min manatla) Azərbaycan manatı ilə*

| | 31.12.2022 | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|---|
| | | | |
| **AKTİVLƏR** | | | |
| Azərbaycan Respublikasının Mərkəzi Bankında nağd pul və qalıqlar | 20 208 | 14 386 | 31 425 |
| Banklardan və digər maliyyə qurumlarından alacaqlar | 6 311 | 9 683 | 10 713 |
| Müştərilərə verilən kreditlər | 262 250 | 260 803 | 226 372 |
| İnvestisiya qiymətli kağızları | | | |
| Qrup tərəfindən saxlanılan qiymətli kağızları | - | 192 | 3 841 |
| Alqı-satqı və repo müqavilələri əsasında girov qoyulub | 10 535 | 2 256 | 2 476 |
| İnvestisiya mülkiyyəti | 12 612 | 12 809 | 13 006 |
| Törəmə şirkətlərə investisiya | - | - | - |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 48 030 | 49 191 | 50 938 |
| İstifadə hüququ olan aktivlər | 480 | 706 | 927 |
| Satış üçün saxlanılan aktivlər | 412 | | |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | - | - | - |
| Digər maliyyə aktivləri | 1 523 | 1 767 | 1 278 |
| Digər aktivlər | 7 028 | 4 988 | 1 654 |
| | | | |
| **Ümumi aktivlər** | **369 389** | **356 781** | **342 630** |
| | | | |
| | | | |
| | | | |
| **Öhdəliklər** | | | |
| Digər borc vəsaitləri | 157 401 | 156 180 | 141 098 |
| Banklardan depozitlər və qalıqlar | - | 160 | 5 732 |
| Müştəri hesabları | 159 843 | 145 566 | 140 193 |
| Buraxılmış borc qiymətli kağızları | 4 594 | - | 1 512 |
| İcarə öhdəlikləri | 496 | 647 | 907 |
| Satış üçün saxlanılan aktivlərlə birbaşa əlaqəli öhdəliklər | 199 | | |
| Digər öhdəliklər | 1 307 | 3 917 | 2 024 |
| | | | |
| **Ümumi öhdəliklər** | **323 840** | **306 470** | **291 466** |
| | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 66 450 | 66 450 | 66 450 |
| Yığılmış zərər | (20 901) | (16 139) | (15 286) |
| | | | |
| **Cəmi Kapital** | **45 549** | **50 311** | **51 164** |
| | | | |
| **Cəmi öhdəliklər və kapital** | **369 389** | **356 781** | **342 630** |

2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

# MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT

*(min manatla) Azərbaycan manatı ilə*

| | 31.12.2022 | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|---|
| | | | |
| Faiz gəliri | 28 350 | 26 486 | 24 342 |
| Faiz xərcləri | (17 142) | (15 631) | (13 626) |
| | | | |
| **Xalis faiz gəliri** | **11 208** | **10 855** | **10 716** |
| | | | |
| Haqq və komissiya gəlirləri | 2 230 | 2 336 | 3 521 |
| Haqq və komissiya xərci | (612) | (617) | (493) |
| | | | |
| Xalis haqq və komissiya gəliri | **1 618** | **1 719** | **3 028** |
| | | | |
| Xarici valyutada alqı-satqı üzrə xalis gəlir | 761 | 776 | 376 |
| Xalis valyuta gəliri (zərəri) | 5 | - | (30) |
| Dövlət subsidiyası | - | - | 48 |
| Digər əməliyyat gəlirləri | 1 737 | 1 622 | 1 486 |
| | | | |
| **Əməliyyat gəlirləri** | **15 329** | **14 972** | **15 624** |
| Dəyərsizləşmənin bərpası/(tutulması) | (4 892) | 696 | (2 923) |
| İşçi heyəti ilə bağlı xərclər | (6 712) | (8 336) | (8 235) |
| Ümumi və inzibati xərclər | (8 467) | (8 156) | (7 720) |
| | | | |
| Mənfəət vergisindən əvvəl zərər | **(4 742)** | **(824)** | **(3 254)** |
| | | | |
| Mənfəət vergisi (xərc)/gəlir | (20) | (29) | - |
| | | | |
| **İl üçün mənfəət (zərər)** | **(4 762)** | **(853)** | **(3 254)** |
| | | | |
| Mənfəət vergisi çıxılmaqla digər məcmu gəlir | - | | |
| | | | |
| **İl üzrə məcmu zərər** | **(4 762)** | **(853)** | **(3 254)** |
| | | | |
| **Səhm üzrə mənfəət (zərər).** | | | |
| Əsas və azaldılmış (AZN ilə ifadə) | (71.66) | (12.84) | (49.30) |

2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

# KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(min manatla) Azərbaycan manatı ilə*

| | Səhm kapitalı | Bölüşdürülməmiş mənfəət/ (Yığılmış kəsir) | Ümumi kapital |
|---|---|---|---|
| **31 dekabr 2019-cu il tarixinə balans** | **66 450** | **(12 032)** | **54 418** |
| İl üçün mənfəət | - | (3 254) | (3 254) |
| **31 dekabr 2020-ci il tarixinə balans** | **66 450** | **(15 286)** | **51 164** |
| İl üçün mənfəət | - | (853) | (853) |
| **31 dekabr 2021-ci il tarixinə balans** | **66 450** | **(16 139)** | **50 311** |
| İl üçün mənfəət | - | (4 762) | (4 762) |
| **31 dekabr 2022-ci il tarixinə balans** | **66 450** | **(20 901)** | **45 549** |
| | 66 450 | (20 901) | 45 549 |

2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

# PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(min manatla) Azərbaycan manatı ilə*

| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərin hərəkəti** | **2022** | **2021** | **2020** |
|---|---|---|---|
| Alınmış faizlər | 26 756 | 27 189 | 25 617 |
| Ödənilmiş faizlər | -16 818 | -14 943 | -13 668 |
| Alınmış haqq və komissiya | 2 230 | 2 336 | 3 521 |
| Ödənilmiş haqq və komissiya | -612 | -617 | -493 |
| Xarici valyuta mübadiləsi əməliyyatları üzrə xalis daxilolmalar | 761 | 776 | 376 |
| Digər gəlirlər | 1 814 | 1 578 | 1 474 |
| İşçi heyəti ilə bağlı ödənilmiş xərclər | -6 734 | -8 313 | -8 321 |
| Ümumi inzibati xərclərin ödənişləri | -6 904 | -6 232 | -4 986 |
| | | | |
| **Əməliyyat aktivlərdə artma/(azalma)** | | | |
| Banklardan alınacaq vəsaitlər | 3 454 | 1 162 | 3 321 |
| Müştərilərə verilmiş kreditlər | -7 980 | -37 403 | -4 456 |
| Digər aktivlər | 935 | -1 000 | -75 |
| | | | |
| **Əməliyyat ödəliklərdə artma/(azalma)** | | | |
| Bank depozitləri və qalıqları | -160 | -5 572 | -252 |
| Cari hesablar və müştəri hesabları | 14 288 | 5 012 | -5 558 |
| Digər öhdəliklər | -1 911 | 1 883 | -11 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **9 119** | **-34 144** | **-3 007** |
| Ödənilmiş mənfəət vergisi | - | - | - |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **9 119** | **-34 144** | **-3 007** |
| | | | |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitlərin xərəkəti** | | | |
| Əmlak avadanlıq, investisiya mülkiyyəti və qeyri-maddi aktivlər əldə edilməsi | -207 | -132 | -929 |
| İnvestisiya qiymətli kağızların satın alınması | -8 726 | -2 295 | -3 573 |
| İnvestisiya qiymətli kağızların ödənilməsi üzrə daxilolmalar | 652 | 6 049 | 725 |
| Əmək, avadanlıq və qeyri-maddi aktivlərin satışı üzrə daxilolmalar | 23 | 603 | - |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **-8 258** | **4 225** | **-3 777** |
| | | | |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərin xərəkəti** | | | |
| Digər borc üzrə daxilolmalar | 18 459 | 37 313 | 37 365 |
| Digər borc üzrə ödənilmələr | -17 508 | -22 497 | -21 859 |
| Borc qiymətli kağızlar üzrə daxilolmalar | 4 590 | -1 500 | 2 000 |
| Borc qiymətli kağızlar üzrə ödənilmələr | - | - | -500 |
| Digər borc vəsaitlərin üzrə ödənilmələr | -354 | -365 | -392 |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərin xərəkəti** | **5 187** | **12 951** | **16 614** |
| | | | |
| **Pul vəsaitləri və onların ekvivalentində xalis artım/(azalma)** | **5 048** | **-16 968** | **9 830** |
| Valyuta mənzələrindən deyişiliklərin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | -39 | -71 | 41 |
| Dövrün əvvəlinə pul vəsaitlərin və onların ekvivalentləri | 14 386 | 31 425 | 21 554 |
| **Dövrün sonuna pul vəsaitlərin və onların ekvivalentləri** | **20 395** | **14 386** | **31 425** |

2021-ci il və 2022-ci illər üzrə hesabatlar konsolidasiya edilmişdir.

**23.2. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Hazırki emissiya **p**rospektinin 23.1-ci bəndində 2020-ci il, 2021-ci il və 2022-ci il üzrə audit olunmuş maliyyə hesabatları konsolidasiya olunmuş maliyyə hesabatlarıdır. 2023-cü il üzrə hesabatlar isə Emitentin törəmə müəssisələri olmadığından konsolidasiya olunmuş deyil.

**23.3. Aralıq və digər maliyyə məlumatları:**

Aralıq və digər maliyyə məlumatları hazırki emissiya prospektinin 23.5-ci bəndində açıqlanır.

**23.4. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi** əlavə **edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir**- Emitentin yarım illik audit edilməmiş maliyyə hesabatları Məlumatların Elektron Açıqlanması Sistemində və hazırki emissiya prospektinin 23.5-ci bəndində təqdim edilir:
https://www.cbar.az/meas

Bundan əlavə, audit olunmamış prudensial hesabatları Emitentin internet səhifəsində yerləşdirilir:
https://www.btb.az/az/about-us/quarterly-reports/rubluk-reports

**23.5. Emissiya propekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir-**

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(min manatla) Azərbaycan manatı ilə*

| Aktivlər | 30.06.2023* | 30.06.2022* |
|---|---|---|
| **Nəğd Vəsaitlər və müxbir hesablar** | **19 168 344** | **26 296 498** |
| **Kredit portfeli** | **274 395 432** | **244 675 262** |
| Biznes | 67 519 277 | 56 898 474 |
| İstehlak | 206 876 155 | 187 776 788 |
| **Ehtiyatlar** | **-18 191 474** | **-20 270 599** |
| **Qiymətli kağızlar** | **17 277 508** | **3 328 140** |
| **Maliyyə sektoruna yerləşdirilmiş kredit və depozit** | **10 676 269** | **13 824 353** |
| **Amortizasiya çıxılmaqla əsas vəsaitlər** | **67 622 766** | **69 572 739** |
| **İnvestisiya** | **0** | **1 000 000** |
| **Digər aktivlər** | **7 373 708** | **5 853 659** |
| **Aktivlər cəmi** | **378 322 553** | **344 280 052** |
| **Öhdəliklər** | | |
| **Cari hesablar** | **15 882 721** | **11 856 053** |
| **Hüquqi şəxslərin müddətli depozitləri** | **0** | **0** |
| **Fiziki şəxslərin müddətli depozitləri** | **132 764 923** | **128 102 850** |
| **Maliyyə sektorundan cəlb edilmiş vəsaitlər** | **173 201 605** | **156 662 214** |
| *Banklardan cəlb edilmiş vəsaitlər* | 1 400 000 | 2 337 600 |
| *Digər maliyyə institutlarından cəlb edilmiş vəsaitlər* | 171 801 605 | 154 324 614 |
| **Digər öhtəliklər** | **9 067 150** | **8 007 789** |
| **Balans kapital** | **52 393 161** | **51 884 423** |

* Audit olunmayıb.

# MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT

*(min manatla) Azərbaycan manatı ilə*

| Maddələr/Aylar | 06/2023* | 06/2022* |
|---|---|---|
| Faiz gəlirləri, o cümlədən | 14 670 183 | 13 354 655 |
| Faiz xərcləri, o cümlədən | 9 355 718 | 8 034 625 |
| Daxili qiymətlər üzrə xalıs gəlir | 2 | 0 |
| Xalis faiz gəlirləri | 5 314 467 | 5 320 030 |
| Haqq və kommision gəlirlər | 1 898 570 | 2 262 798 |
| Haqq və komission xərclər | 1 343 573 | 1 147 091 |
| Diling Əməliyyatları üzrə xalis gəlir | 296 505 | 430 697 |
| Xalis əməliyyat gəlirləri | 851 502 | 1 546 404 |
| İnzibati xərclər | 5 241 579 | 6 445 155 |
| Məzənnə fərqi üzrə xalis gəlir | -9 506 | 10 107 |
| Əməliyyat mənfəəti | 914 884 | 431 385 |
| Ehtimal olunan zərər üçün ehtiyata ayırmalar | -2 242 276 | 5 705 713 |
| Mənfəət/Zərər | 3 157 160 | -5 274 329 |
| Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçotdakı dəyişikliklərdən yaranan xərc | 2 848 008 | 0 |
| Mənfəət/Zərər | 309 152 | -5 274 329 |

* Audit olunmayıb.

# ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ

*(min manatla) Azərbaycan manatı ilə*

| Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərin hərəkəti | 06/2023* | 06/2022* |
|---|---|---|
| Alınmış faizlər | 14 063 917 | 13 337 407 |
| Ödənilmiş faizlər | -9 617 746 | -7 531 914 |
| Alınmış haqq və komissiya | 1 775 429 | 2 191 424 |
| Ödənilmiş haqq və komissiya | -939 644 | -796 059 |
| Diling Əməliyyatları üzrə xalis gəlir | 296 505 | 430 697 |
| İşçilərlə bağlı ödənilmiş xərclər | -3 002 074 | -3 717 569 |
| Ödənilmiş digər və inzibati xərclər | -2 276 323 | -2 615 722 |
| | | |
| **Əməliyyat aktivlərin xalis artım/azalma** | **33 324** | **15 681 747** |
| Kredit təşkilatlardan alınaçaq məbləğlər | 638 170 | 586 538 |
| Müştərilərə verilmiş kredit və avanslar | -8 624 568 | 9 593 192 |
| Banklardan alınacaq məbləğlər | 6 700 000 | 8 178 010 |
| Digər maliyyə təşkilatlardan alınacaq məbləğlər | 3 791 329 | -2 487 940 |
| Digər aktivlər | -3 127 116 | -188 053 |
| | | |
| **Əməliyyat öhdəliklərin xalis artım/azalma** | **-8 915 864** | **-10 637 185** |
| Müştərilər qarşısında öhdəliklər | -10 576 861 | -7 473 636 |
| Banklar qarşısında öhdəliklər | 0 | 32 300 |
| Kredit təşkilatların qarşısında öhdəliklər | 0 | 0 |
| Digər maliyyə təşkilatları qarşısında öhdəliklər | 13 333 770 | 0 |
| Digər öhdəliklər | -11 672 773 | -3 195 849 |
| | | |
| **Mənfəət vergisindən əvvəl əmaliyyat fəaliyyati üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **-8 582 475** | **6 342 825** |
| | | |
| | | |
| **Ödənilmiş mənfəət vergisi** | 0 | 0 |
| | | |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitləri** | **-8 582 475** | **6 342 825** |
| | | |
| **İnvestisiya fəaliyyəti üzrə daxil olan/istifadə edilən xalis pul vəsaitlərinin hərəkəti** | | |
| Əsas vəsaitlərin əldə edilməsi üzrə ödənişlər | 296 | -32 011 |
| İnvestisiya qiymətli kağızların xalis pul axını | 6 780 908 | -203 271 |
| Subordinasiya borc öhdəliyi | 0 | 5 000 000 |
| İnvestisiya mülkiyyəti | 0 | 0 |
| İcarə fəaliyyəti üzrə gəlir | 67 119 | 68 390 |
| Digər investisiyalar | 1 000 000 | 0 |
| | | |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **7 848 322** | **4 833 108** |
| | | |
| **Məzənnə fərqi üzrə xalis gəlir** | **-9 506** | **10 107** |
| | | |
| **Maliyyə fəaliyyəti** | | |
| Digər borc öhdəlikləri | 2 676 703 | -120 972 |
| Buraxılmış digər borc öhdəlikləri | 0 | 0 |
| Nizamnamə kapitalı | 0 | 0 |
| Emissiya gəliri | 0 | 0 |
| İmtiyazlı səhmlər üzrə emissiya gəliri | 0 | 0 |
| | | |
| **Maliyyə fəaliyyəti üzrə zalis artıb/azalma** | **2 676 703** | **-120 972** |
| | | |
| **Pul vəsaitləri və onların və onların ekvivalentində xalis artım/azalma** | **1 933 044** | **11 065 067** |
| | | |
| **Dövrün əvvəlinə pul vəsaitlərin və onların ekvivalentləri** | **17 007 668** | **14 996 080** |
| | | |
| **Dövrün sonuna pul vəsaitlərin və onların ekvivalentləri** | **18 940 712** | **26 061 147** |

* Audit olunmayıb.

**23.6. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) emitentin səhmlərinin sayını göstərməklə, hər səhmə düşən və ödənilmiş dividendlər haqqında məlumat –** dividend ödənişi olmamışdır.

**23.7. Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Qəbul edilmiş məhkəmə qərarlarının icrası nəticəsində problemli aktivlər portfelinin əhəmiyyətli dərəcə azalması

müşahidə edilmişdir və nəticədə müəyyən qədər bank ehtiyatlarının bərpa olunması ilə nəticələnmişdir.

**23.8.Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində əhəmiyyətli dəyişikliklər baş verməmişdir.

**24.Emitent haqqında əlavə məlumatlar.**

**24.1.Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:**

| Adı | Vətəndaşlığı | Səhmlərin sayı | Nizamnamə Kpitalında faiz nisbəti |
|---|---|---|---|
| Mehdiyeva Nigar İsmayıl qızı | Azərbaycanlı | 49 829 | 74.9872% |
| Sadiq Rza İsmayıl oğlu | Azərbaycanlı | 12 634 | 19.0128% |
| Tükazban Ağa qızı Mahmudova | Azərbaycanlı | **3** 987 | 6% |

Emitentin nizamnamə kapitalı hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 66 450 (altmış altı min dörd yüz əlli) ədəd adi, sənədsiz, adlı səhmdən ibarət olmaqla cəmi 66 450000 (altmış altı milyon dörd yüz əlli min) manat məbləğində təsbit olunmuşdur. Dövlət qeydiyyat nömrəsi – AZ1001009443 Səhmdarlar Emitent tərəfindən yeni səhmlər buraxılarkən onları almaqda üstünlük hüququna malikdirlər.

Eyni növlü səhm üzrə verilən hüquqlar eynidir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Emitentin adi səhmlərinin sahibləri olan səhmdarları nizamnamədə müəyyən edilmiş aşağıdakı hüquqlara malikdirlər.

- Emitentin nizamnaməsi və qanunvericiliklə müəyyən edilmiş qaydada Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq,ildə bir dəfə onun illik hesabatı və mühasabatı balansı ilə tanış olmaq

- Ümumi yığıncağın çağrılmasını tələb etmək

- Ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək

- Ümumi yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək

Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək

- Cəmiyyətin xalis mənfəətindən dividend almaqCəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək cəmiyyət tərəfindən kütləvi buraxılmış səhmlərə münasibətdə nizamnamə kapitalındakı pay faizinə mütənasib olaraq üstünlük hüququna malik olmaq

- Cəmiyyətin fəaliyyətinə xitam verildikdə Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən hesablanmış lakin ödənilməmiş dividendlər,habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq

- Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq

- Qanunvericilik və nizamnamə ilə nəzərdə tutulmuş hallarda Emitentin səhmdarları digər hüquq və vəzifələrə malikdirlər.

**24.2. Emitentin emissiya hesabında olan səhmlərinin sayı və nominal dəyəri:**mövcud deyil

**24.3. Emitentin törəmə müəssisələrinə məxsus emitentin səhmlərinin sayı və nominal dəyəri:**törərmə cəmiyyət mövcud deyil.

**24.4. Əsas şərtlərini və məbləğini göstərməklə emitentin konvertasiya edilə bilən və təmin olunmuş qiymətli kağızları barədə məlumat**- mövcud deyil.

**24.5. .Emitentin səhmlərinə olan opsionlar barədə məlumat**- Emitentin səhmlərinə opsion tətbiq edilmir.

**24.6.- Son üç il ərzində nizamnamə kapitalında baş verən dəyişikliklər barədə məlumat** - Son üç il ərzində nizamnamə kapitalında dəyişikliklər olmayıb;

**24.7. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat.**

**24.7.1. Fəaliyyət və məqsədlərin təsviri:**

- tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
- ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə veksellәri) buraxılması;
- öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması;
- öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
- öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
- qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

**24.7.2. İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:**

**Emitentin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır.** Cəmiyyətin səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- cəmiyyətin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;

- cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;
- cəmiyyətin cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya təftiş komissiyasını (müfəttişini) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.2-ci və 87.10-cu maddələrində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək.

**Müşahidə Şurasının səlahiyyətləri:**

- *Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən bankın İdarə Heyətindən hesabat almaq;*
- *Səhmdarların ümumi yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;*
- *Səhmdarların ümumi yığıncağının hər bir iclasmı bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;*
- *Bank tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə bu pozuntu barəsində səhmdarların ümumi yığıncağını, Audit Komitəsini və İdarə Heyətini məlumatlandırmaq, Mərkəzi Banka isə bank qanunvericiliyinin, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinin pozulması faktları barədə bildiriş göndərmək;*
- *İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq, səhmdarların ümumi yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq bu Qanunun 10-cu maddəsinin tələblərinə cavab verən başqa şəxslərlə əvəz etmək;*
- *Bankın Audit Komitəsinin üzvlərini təyin və azad etmək, Audit Komitəsinin əsasnaməsini təsdiq etmək;*
- *Bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda bankı idarə və təmsil etmək;*
- *Bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət proqramını hazırlamaq və tətbiq etmək;*
- *Bankın kapital ehtiyatları yaradılması haqqında qərar qəbul etmək;*
- *Bankın nizamnamə kapitalının 50 faizindən artıq məbləğdə və bankın nizamnaməsində nəzərdə tutulmuş hallarda bank adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;*
- *Səhmdarların ümumi yığıncağının səlahiyyətinə aid olan hallar və İdarə Heyəti tərəfindən qərarın qəbul edilməsi halları istisna olmaqla, aidiyyəti şəxslərlə dəyəri bankın aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;*
- *Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayn sahələrinin yoxlanması barədə qərar qəbul etmək;*
- *Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;*
- *Bankın nizamnaməsi və Mərkəzi Bankın normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.*

**İdarə Heyətinin səlahiyyətləri:**

- *İdarə Heyəti Bankın Nizamnaməsində nəzərdə tutulmuş, səhmdarların ona vermiş olduğu və bu Əsasnamədə göstərilən aşağıdakı səlahiyyətlərə malikdir:*
- *Bankın cari fəaliyyəti barədə qərarlar qəbul etmək;*
- *Kredit və zəmanətlərə görə götürülmüş asas vəsaitləri balansa götürmək və ya ondan istifadə prinsiplərini müəyyənləşdirmək;*
- *Müşahidə Şurasının müəyyən etdiyi səlahiyyətlər daxilində qərarlar qəbul etmək, limitlər müayyən etmək;*
- *Bankın bütün struktur bölmolori və mühasibat xidmətinin əməkdaşları tərəfindən məhsul və xidmətlər haqqında yaradılmış cari məlumat bazası ilə tanış olmaq;*
- *Daxili audit departamenti istisna olmaqla, Bankın icra strukturlarının tərkibini formalaşdırmaq;*
- *Bankın əməliyyat planlarını təsdiq etmək;*
- *Müşahidə Şurası tərəfindən təsdiq edilmiş strategiya, siyasət və qaydalara uyğun olaraq, bankdaxili prosesləri müəyyən etmək;*
- *Bankın fəaliyyatinə aid Səhmdarların Ümumi Yığıncağı, Müşahidə Şurası və Audit Komitəsinin müstəsna səlahiyyətlərinə aid olmayan və Azarbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.*

**24.8. mövcud səhmlərin hər bir növü üzrə məhdudiyyətlərin təsviri**:
Nizamnanə kapitalı səhmlərin emissiya yolu ilə artırılır. "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 3.4-cü maddəsinə əsasən Banklar haqqında qanunun 21.2-ci və 21.3-cü maddələrinin tələblərinə müvafiq olaraq Mərkəzi Bankın qabaqcadan yazılı icazəsi olmadan bank səhmlərinin satın alınması və ya səhmlərin nominal dəyərinin azaldılması zamanı onun dəyərinin ödənilməsi yolu ilə məcmu kapitalını azalda bilməz, habelə xarici bank nizamnamə kapitalına bərabər tutulmuş vəsaitlərinin geri götürülməsi yolu ilə yerli filialının məcmu kapitala bərabər tutulmuş vəsaitini azalda bilməz.

**24.9. Səhmdarların illik və növbədənkənar ümumi yığıncaqlarına çağırılma qaydası-**
-Səhmdarların ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər.
-Səhmdarların növbəti ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik ümumi yığıncaq). "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların illik ümumi yığıncağı maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq, direktorlar şurası (müşahidə şurası) tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) olmadıqda, səhmdarların ümumi yığıncağının çağırılması cəmiyyətin icra orqanı tərəfindən həyata keçirilir.
-Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:

üç iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtmı və yerini təyin edib, qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olunmaqla, bu barədə mediada elan verməlidir; beş iş günü müddətində səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir; otuz gündən tez, qırx beş gündən gec olmayaraq səhmdarların ümumi yığıncağının keçirilməsini təmin etməlidir.

**24.10. Son 2 il ərzində emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** mövcud deyil

**SƏHMLƏR BARƏDƏ MƏLUMAT**

**25.Əsas məlumatlar**

**25.1. Emitentin dövriyyə kapitalı (carı aktivlərdən cari öhdəlikləri çıxmaqla) barədə hesabat:** 31.12.2023 tarixinə Prudensial hesabatı üzrə dövriyyə kapitalı - 47 363 309 manat

**25.2. Dövriyyə kapitalının emitentin cari ehtiyacları üçün kifayət etdiyi və ya lazım olan əlavə vəsaitlər və onların mənbələri barədə məlumat** : Dövriyyə kapitalı emitentin cari ehtiyaclarını qarşılaya bilmədiyi zaman emitent qanunvericilikdə nəzərdə tutulmuş vasitələrdən istifadə edə bilər. . Bu vasitələr dövriyyə kapitalının idarə edilməsində çeviklik təmin etməklə emitentlərə maliyyə dayanıqlığını gücləndirməyə kömək edə bilər. Hesablar üzrə və əmanətlərə vəsaitlərin cəlb edilməsi, maliyyə və bazardan kreditlərin cəlb edilməsi, habelə qiymətli kağızların buraxılması və s. formada əlavə vəsaitləri cəlb etmək imkanına malikdir. Bununla belə, hər bir variant qanunvericilik və maliyyə bazarı şərtləri nəzərə alınmaqla diqqətlə qiymətləndirilməlidir. Bundan əlavə, resurslardan istifadənin səmərəli planlaşdırılması və idarə olunması bankların maliyyə sabitliyinin qorunmasında mühüm rol oynayır

**25.3.Emissiya prospektinin tərtib edilməsi tarixinə qədər son üç ay ərzində emitentin kapitallaşma və borcları (zəmanətli və zəmanətsiz, təminatlı və təminatsız, dolayı və şərti borcluluq) barədə hesabat**- Emitentin hər hanslı bir borcu yoxdur.

**25.4.Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat –**

**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**

“Bakı Fond Birjası” QSC səhm və digər növ qiymətli kağızlarla ilkin və təkrar bazarda mütəşəkkil ticarəti təşkil edir. “Bank BTB” ASC-nin tədavüldə olan səhmləri “Bakı Fond Birjası” QSC-nin standard bazar seqmentində ticarət olunur. Bu emissiya prospekti təsdiq olunduqdan sonra yeni buraxılacaq səhmlər tədavüldə olan səhmlərlə eyni dövlət qeydiyyat nömrəsi altında “Bakı Fond Birjası” QSC-nin listinqinə daxil ediləcəkdir. “Bakı Fond Birjası” QSC “Bank BTB” ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarət buraxılmasında marağı kommersiya xarakterlidir. “Bakı Fond Birjası” QSC qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızları öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Milli Depozit Mərkəzi**

Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir.

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Səhmlərin yerləşdirilməsi prossesində MDM-in əsas vəzifəsi səhmlərin saxlanması və səhm mülkiyyətçilərinin reyestrinin aparılmasıdır.

Milli Depozit Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının “Qiymətli kağızlar bazarı haqqında” Qanunu və MDM-in daxili Qaydaları ilə tənzimlənir.

**Anderrayter**

“Assist Finance İnvestisiya Şirkəti” ASC İŞ-03 nömrəli, 20 iyun 2023-cü il tarixli lisenziya əsasında saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini abunə yazılışı zamanı Birjaya təqdim edir, BFB-

nin ticarət sistemi vasitəsi ilə səhmlərin yerləşdirilməsi xidmətlərini göstərir. Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə səhmlər yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**25.5.Səhmlərin təklifinin səbəbləri və səhmlərin yerləşdirilməsindən və ya satılmasından əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**Təklifin səbəbi Emitentin gələcək inkişafı və artım planlarının icrası çərçivəsində Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi minimum kapital tələblərinə cavab verməsi və dayanıqlı kapital mövqeyinin təmin olunmasıdır. Emissiya nəticəsində cəlb olunucaq vəsaitlər Emitentin fəaliyyətinin mühüm növlərindən biri olan kreditləşmədə istifadə olunacaq..

**25.6.Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə lazım olan digər pul vəsaitlərinin məbləği və mənbələri-** Nəzərdə tutulmayıb.

**25.7.Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat-** Nəzərdə tutulmayıb.

**26.Təklif edilən səhmlər haqqında məlumat**

**26.1.Qiymətli kağızların emissiyasını tənzimləyən Azərbaycan Respublikasının qanunları-** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, “Qiymətli kağızlar bazarı haqqında” Qanun, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş “Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında” Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında” Qaydalar;

**26.2.Səhmlərin növü**-adi, adlı, sənədsiz;

**26.3.Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan səhmlər barədə məlumat ayrı ayrılıqda göstərilməklə)-**

- Mövcud səhmlər- hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 66 450 (altmış altı min dörd yüz əlli) ədəd adi, sənədsiz, adlı səhmdən ibarət olmaqla cəmi 66 450000 (altmış altı milyon dörd yüz əlli min) manat məbləğində təsbit olunmuşdur

- Yeni buraxılan-hər birinin nominal dəyəri 1000 manat olan 5000 (beş min) ədəd adi,adlı.sənədsiz səhm

**26.4.Səhmlərin qeydiyyat nömrəsi –** AZ1001009443

**26.5.Səhmlərlə təsbit olunan hüquqlar -**

Səhm mülkiyyətçisinin bir qiymətli kağızla təstib edilən hüquqları:
- hər bir səhmdar cəmiyyətin illik mənfəətinin məbləğindən malik olduğu səhmin dəyərinə uyğun olaraq dividend alır. Səhmə düşən dividendin məbləği səhmdarlarin ümumi yığıncağında müəyyən edilir.
- ümumi yığıncağın qərarı ilə səhmlər üzrə dividendlər rüb üzrə də ödənilə bilər;
- cəmiyyətin idarə edilməsində Azərbayan Respublikasının Mülki Məcəlləsi və digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

- qanunvericilikə müəyyən edilmiş qaydada, cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- ümumi yığıncağın çağırılmasını tələb etmək;
- ümumi yığıncağin gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
- ümumi yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- cəmiyyətin xalis manfəətindən dividend almaq;
- cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmiş, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq;
- hər bir səhmdar malik olduğu səhmlərin sayına görə səs huququna malikdir;
- cəmiyyətin səhmləri səhmdar olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxslərin hüquq varislərinə cəmiyyətin qalan səhmdarlarının razılığı olmadan keçir.

**26.6.Səhmlərlə təsbit olunan məhdudiyyətlər-**mövcud deyil

**26.7.Səhmlərin saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer-** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi

Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. Milli Depozit Mərkəzinin ünvanı: Azərbaycan Respublikası, Bakı şəh, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad tauer.

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. Səhmlərın yerləşdirilməsi prosesində MDM-in əsas vəzifəsi Səhmlərin saxlanması və səhm mülkiyyətçilərinin reyestrinin aparılmasıdır.

Milli Depozit Mərkəzinin fəaliyyəti Azərbaycan Respublikasının “Qiymətli kağızlar bazarı haqqında” Qanunu və MDM-in daxili Qaydaları ilə tənzimlənir.

**26.8.Dividend siyasəti** - Dividend - hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi, o cümlədən hüquqi şəxs ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir. Səhmdar cəmiyyətinin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər.

Emitent tərəfindən səhmdarlara dividendlərin ödənilməsi Emitentin Səhmdarlarının Ümumi Yığıncağının Qərarına əsasən və Azərbaycan Respublikası Mərkəzi Bankının etirazı olmadığı halda həyata keçirilir.

**26.9.Üstünlük hüququ tətbiq edildiyi halda, həmin hüququn həyata keçirilməsi qaydası və müddəti, yaxud üstünlük hüququnun tətbiq edilmədiyi barədə qeyd**- Cəmiyyətin Səhmdarı səhmlərin əldə edilməsində Nizamnamə kapitalında malik olduğu paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdir və öz üstünlük hüququndan, səhmlər Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 iş günü ərzində istifadə edə biləcək.

**26.10.Səhmlərin geri satın alınma şərtləri (olduqda):**Nəzərdə tutulmayıb

**26.11.Səhmlərin konvertasiyası şərtləri (olduqda):** Yoxdur.

**26.12.Səhmlərin emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı** - 20 fevral 2024-cü il tarixli, Bank “BTB” Açıq

**26.13.Səhmlərin əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** mövcud deyil

**26.14.Keçən və cari maliyyə ili ərzində emitentin səhmlərinin alınmasına dair məcburi təkliflərin mövcudluğu. Bu təkliflər və onların nəticələri ilə bağlı qiymət və ya konvertasiya şərtləri barədə məlumat**-emitentə belə bir təklif olunmamışdır.

**26.15.Dividendlərdən mənbədə verginin tutulması barədə məlumat. Dividendlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi- .** Ödəmə mənbəyində dividenddən vergi tutulması AR Vergi Məcəlləsinin 122-ci maddəsi ilə tənzimlənir. Hər bir səhmdar Cəmiyyətin illik mənfəətinin məbləğindən malik olduğu səhmin dəyərinə uyğun olaraq dividend alır.Vergi Məcəlləsinə əsasən rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 5 faiz dərəcə ilə vergi tutulur.Həmçinin, AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. Səhmlərin dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**27.Təklif şərtləri**

**27.1.Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri -**

Hər birinin nominal dəyəri 1000 (bir min) manat təşkil edən səhmin təklifi nəzərdə tutulur. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri: Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri "Assist Finance İnvestisiya Şirkəti" ASC tərəfindən Bakı Fond Birjası QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Mövcud səhmdarlar əlavə buraxılan səhmləri cəmiyyətin nizamnamə kapitalında malik olduqları paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdirlər. Bu üstünlük hüququndan istifadə imkanı barədə bildiriş əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra 5 (beş) iş günü ərzində səhmdar cəmiyyəti tərəfindən sifarişli poçt göndərişi ilə hər bir səhmdara göndəriləcəkdir. Əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ən geci 5 (beş) iş günü ərzində abunə yazılışının başlama vaxtı elan ediləcəkdir (bu zaman mövcud səhmdarların üstünlük hüququndan istifadə etməsi ilə bağlı müəyyən olunmuş müddət tələbi nəzərə alınacaqdır) və abunə yazılışının keçirilməsi müddəti ən geci 5 (beş) iş günü müddətində davam edəcəkdir.
Abunə yazılışı başa çatdıqdan sonra ən geci 5 (beş) iş günü ərzində emitent və yerləşdirməni həyata keçirən anderrayter səhmlərin yerləşdirilməsinə başlayacaqdır. Abunə yazılışı başa çatdıqdan sonra ən geci 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxlərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsinə elanda qeyd olunan tarixdə başlanılacaq və ən geci 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

Səhmdarlar səhmdar cəmiyyətinin səhmlərini almaqda üstünlük hüququna malikdirlər.

**27.2.Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası -** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində edilmiş

dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində “Qiymətli kağızlar bazarı haqqında” Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir;

**27.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı -** Təklif “Qiymətli kağızlar bazarı haqqında” Qanunun 9-cu maddəsinə əsasən dayandırıla bilər.

**27.4. Təklifin nəzərdə tutulan müddətdən tez başa çatdırılmasının şərtləri -** Nəzərdə tutulmuş təklif edilən sifariş məbləği investorlar tərəfindən tələb edildiyi halda və buraxılış üzrə elan olunmuş ümumi 5 000 000 (beş milyon) manat məbləğində 5000 (beş min) ədəd səhmin yerləşdirilməsi başa çatdıqda təklif nəzərdə tutulan müddətdən tez başa çatdırıla bilər.

**27.5. Səhmlərə abunə yazılışının qaydası**-

Hər birinin nominal dəyəri 1000 (bir min) manat təşkil edən səhmin təklifi nəzərdə tutulur. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri: Səhmlərin yerləşdirilməsi kütləvi təklif üsulu ilə, Emitentin anderrayteri “Assist Finance İnvestisiya Şirkəti” ASC tərəfindən Bakı Fond Birjası QSC-də həyata keçiriləcək. Kütləvi təklif edilən səhmlərə anderrayter tərəfindən abunə yazılışı səhmlərin yerləşdirilməsindən əvvəl həyata keçirilir. Mövcud səhmdarlar əlavə buraxılan səhmləri cəmiyyətin nizamnamə kapitalında malik olduqları paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdirlər. Bu üstünlük hüququndan istifadə imkanı barədə bildiriş əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra 5 (beş) iş günü ərzində səhmdar cəmiyyəti tərəfindən sifarişli poçt göndərişi ilə hər bir səhmdara göndəriləcəkdir. Əlavə səhm buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ən geci 5 (beş) iş günü ərzində abunə yazılışının başlama vaxtı elan ediləcəkdir (bu zaman mövcud səhmdarların üstünlük hüququndan istifadə etməsi ilə bağlı müəyyən olunmuş müddət tələbi nəzərə alınacaqdır) və abunə yazılışının keçirilməsi müddəti ən geci 5 (beş) iş günü müddətində davam edəcəkdir.

Abunə yazılışı başa çatdıqdan sonra ən geci 5 (beş) iş günü ərzində emitent və yerləşdirməni həyata keçirən anderrayter səhmlərin yerləşdirilməsinə başlayacaqdır. Abunə yazılışı başa çatdıqdan sonra ən geci 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi elan edilir və abunə yazılmış şəxslərə bu barədə bildiriş göndərilir. Səhmlərin yerləşdirilməsinə elanda qeyd olunan tarixdə başlanılacaq və ən geci 7 (yeddi) iş günü ərzində başa çatdırılacaqdır.

Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

**27.6. Abunə yazılışının minimum və maksimum məbləği** - Buraxılış üzrə elan olunmuş ümumi 5 000 000 (beş milyon) manat dəyərində 5 000 (beş min) ədəd səhmin yerləşdirilməsi başa çatdıqda emissiya baş tutmuş hesab edilir.

**27.7. Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənilmiş artıq məbləğin geri qaytarılması qaydası -** Abunəçi tərəfindən hər birinin nominal dəyəri 1000 (bir min) manat, ümumilikdə 5 000 000 (beş milyon) manat dəyərində 5 000 (beş min) ədəd ədəd adi adlı sənədsiz səhmlərin geri çağırılması abunə yazılışının bitmə tarixinə qədər mümükündür. Abunə müddətində elan olunmuş 5 000 000 (beş milyon) manat məbləğindən artıq məbləğin ödənilməsi nəzərdə tutulmur.

**27.8. Abunə yazılışı zamanı sifarişlərin məbləği təklifin məbləğindən çox olduqda səhmlərin yerləşdirilməsi qaydası -** Yerləşdirilmə 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında” Qaydalarına əsasən həyata keçirilir;

Elan olunmuş 5 000 000 (beş milyon) manat məbləği yığıldıqdan sonra abunə yazılışı dayandırılır.Mövcud səhmdarlar əlavə buraxılan səhmləri cəmiyyətin nizamnamə kapitalında malik olduqları paya mütənasib şəkildə almaqda üstünlük hüququna malikdirlər.

**27.9. Bir şəxs tərəfindən, abunə yazılışı zamanı, verilən bir neçə sifarişlərin qəbul edilib-edilmədiyinin şərtləri**- Sifarişlər elan olunmuş məbləğ həddində qəbul edilir və səhmlərin nominal dəyəri ilə yerləşdirilir.Mövcud səhmdarlar nizamnamə kapitalındakı paylarına mütənasib

qaydada üstünlük hüququndan istifadə etdikdən sonra növbəlilik qaydasında sifarişlərə baxılır.Bir şəxs tərəindən veriləcək sifariş həcminə limit qoyulmamışdır.

**27.10. Səhmlərin dəyərinin ödənilməsi və investorların səhmlərlə təchizatı qaydası -**
İnvestisiya qiymətli kağızlarının dəyərinin ödənilməsi qaydası "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu"da və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar"da müəyyən olunmuş formada həyata keçirilir. Kütləvi təklif edilən investisiya qiymətli kağızlarının dəyəri yalnız pulla ödənilir və bu pul vəsaiti kliring təşkilatının üzvü olan bankda ("Bank BTB ASC") emitentin açdığı müvəqqəti cari hesabda saxlanılır. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini "Bank BTB ASC"-də emitentin adına açılmış müvəqqəti cari hesaba köçürməlidirlər.Yerləşdirmə başa çatdıqdan sonra Milli Depozit Mərkəzi qiymətli kağızları dəyərinin investrolar tərəfindən ödənilməsi haqqında məlumatları bankdan aldıqdan sonra növbəti gün ərzində qiymətli kağızları investorların depo hesablarına köçürmə əməliyyatlarını həyata keçirir.

**27.11. Üstünlük hüququnun istifadəsi qaydası və həmin hüquqdan istifadə olunmadıqda bunun nəticələri barədə məlumat;**–əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ mövcud səhmdarlara məxsusdur. Səhmdar ona məxsus səhmlərə mütənasib qaydada yeni buraxılan səhmləri almaq hüququ vardır. Üstünlük hüququ olan səhmdarlar sifarişlərini anderrayterə təqdim etdikdən sonra Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi aşağıdakı ardıcıllıqla həyata keçiriləcək:

- İlk 2 iş günü ərzində üstünlük hüququna malik olan səhmdarlar arasında səhmlərin yerləşdirilməsi;
- Digər investorlara səhmlərin yerləşdirilməsi.

**27.12. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat –** Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirdiyi üçün bu barədə məlumat mövcud deyil

**27.13. Səhmlərin satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat -** Abunə yazılışı başa çatdıqdan sonra 2 (iki) iş günü ərzində səhmlərin yerləşdirilməsinin başlama tarixi emitent tərəfindən elan edilir və abunə yazılmış şəxlərə bu barədə bildiriş göndərilir.

**27.14. Emitentin məlumatları əsasında yerləşdirilən səhmlərin mühüm iştirak payına sahib olan səhmdarlar və ya emitentin idarəetmə və nəzarət orqanların üzvləri tərəfindən və ya təklifin 5%-dən çoxunu almaq niyyəti olan şəxslər barədə məlumat --** Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirdiyi üçün bu barədə məlumat mövud deyil. Lakin bu bəndə nəzərdə tutulan şəxslərin emissiyada iştirakı istisna olunmur.

**27.15 İnstutisional və pərakəndə investorlar və emitentin işçiləri üçün təklifin hissələrə bölünməsi barədə məlumat :** Səhmlər kütləvi təklif üsulu ilə yerləşdirdiyi üçün bu barədə məlumat mövud deyil. Lakin bu bəndə nəzərdə tutulan emitentin işçiləri üçün emissiyada iştirakı istisna olunmur və emitentin işçiləri üçün əlavə şərtlər nəzərdə tutulmamışdır.

**27.16. Yerləşdirmə zamanı bəzi investor qruplarına əvvəlcədən müəyyən olunmuş səhmlərin imtiyazlı alışının təsviri, bu cür imtiyazlı alış üçün ayrılmış səhmlərin faiz nisbəti və belə investor qruplarına daxil olma meyarları-** İlk növbədə əlavə buraxılan səhmləri almaqda üstünlük hüququ olan emitentin səhmdarının təqdim etdiyi sifarişlər təmin olunur.Bu sifarişlər səhmlərin yerləşdirilməsinə başlandığı tarixdən ilk 2 (iki) iş günü ərzində icra edilir.

**27.17. Səhmlərin təklif qiyməti-** Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 1000 (bir min) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir**.**

**27.18. Satış qiymətinin açıqlanma qaydası -** Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra kütləvi informasiya vasitələrində emissiya prospekti açıqlanacaqdır və səhmin satış qiyməti barədə bütün investorlar məlumatlandırılmış olacaqdır. Yerləşdirmənin başlanma tarixində səhmlərin satış qiyməti səhmlərin nominal dəyərinin 100 faizini, yəni bir ədəd səhmin satış qiyməti 1000 (bir min) manat təşkil edir. Səhmlərin dəyəri nağdsız qaydada, milli valyutada manatla ödənilir.

**27.19. Səhm alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği -** Səhmlər alınan zaman Emitent və investor tərəfindən hər hansı vergi ödənişi qanunvericiliklə nəzərdə tutulmamışdır.Gələcəkdə bu səhmlər üzrə investora ödəniləcək dividentlər ödəmə mənbəyindən

vergidən 2028-ci ilin 1 fevral tarixinədək azaddır. Beləki, Vergi Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslər 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

- Bakı Fond Birjasının səhmlərinin yerləşdirilməsi üzrə komissiyası səhmlərin nominal dəyərinin 0.05% (min.0.5- max.500 azn).
- İnvestisiya şirkəti- investisiya xidmətlərinin göstərilməsinə üzrə xidmət haqqı- səhmin nominal dəyərinin 0.02%
- Depo hesabının açılması-10 manat
- Bank xərcləri – bank xərcləri yoxdur.

**27.20. Səhmləri öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyanın nömrəsi, verilmə tarixi), xidmət haqqı** Səhmlər "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir.

"Assist Finance İnvestisiya Şirkəti" ASC 20 iyun 2023-cü il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 03 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.
Ünvanı: Bakı şəhəri, Xətai rayonu, Xocalı pr 37
VÖEN-i: 2004868781.
Telefon: + 994 (12) 310 34 20
Elektron poçt ünvanı: info@assistfinance.az
Emitent Anderrayterlə bağlanılmış müqaviləyə əsasən komissiya ödəyəcəkdir.

**28. Ticarətə buraxılma və onun tənzimlənməsi**

**28.1. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri-** Səhmlərin ilkin yerləşdirilməsi, listinqi və tədavülü Bakı Fond Birjasında aparılacaqdır. Səhmlərin tənzimlənən bazarda ticarətə buraxılması barədə BFB-yə Emitent tərəfindən müraciət səhmlər dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

Səhmlərin kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (BFB) ticarət platformasında abunə yazılışı yolu ilə həyata keçiriləcəkdir. Səhmlərin listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən emissiya prospekti təsdiq edilib, buraxılış dövlət qeydiyyatına 7 alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı fond birjası" QSC-də qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" na əsasən həyata keçirilir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimifəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir: - dövlət qiymətli kağızları bazarı; - korporativ qiymətli kağızlar bazarı; - törəmə maliyyə alətləri bazarı. Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) Elektron poçt ünvanı: info@bse.az İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.azTel: (+99412) 539 72 49 BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, AzərbaycanRespublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**28.2. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat-**

**"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti**

Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və hazırda yerli banklar, investisiya şirkətləri və Borsa İstanbul da daxil olmaqla 20 səhmdarı mövcuddur. Bakı Fond Birjası 21 iyul 2000-ci il tarixində fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziyanı əldə etmişdir və hazırda Azərbaycanda qiymətli kağızlarla mütəşəkkil ticarətin yeganə təşkilatçısı qismində çıxış edir.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) Elektron poçt ünvanı: info@bse.az İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az Tel: (+99412) 539 72 49

VÖEN: 1700262271, Lisenziya müddəti: müddətsiz.

**28.3.Market meyker(lər) barədə məlumat (olduqda) -** Mövcud deyil;

**28.4. Səhmlərin qiymətinin sabitləşdirməyə yönəlmiş əqdlərin bağlanması nəzərdə tutulduğu halda aşağıdakılar qeyd olunmalıdır -** Nəzərdə tutulmayıb;

**29.Təklif edilən səhmlərin mülkiyyətçisi haqqında məumat:** Mövcud deyil

**30. Emissiya xərci:**

**30.1. Emissiyanın həyata keçirilməsindən nəzərdə tutulan xərclər və cəlb olunacaq vəsaitlərin xalis məbləği.**

- Bakı Fond Birjasının səhmlərin alqı-satqı üzrə komisiyası səhmlərin nominal dəyərinin 0.05% (maks. 500 manat).
- Emissiya prospektinin qeydiyyatı (dövlət rüsumu) - 1 200 manat;
- səhmlərin listingə daxil edilməsi - 500 manat;
- səhmlərin saxlanılması və reyestrin aparılması – nominal dəyərin 0.02% ;
- investisiya şirkətinin komisyon haqqı: səhmlərin nominal dəyərinin 0.05% -i həcmində müəyyən olunur.

Emissiyanın həyata keçirilməsi nəticəsində cəlb olunacaq vəsaitlərin xalis məbləği 4994300 manatdır.

**31. Payın azalması**

**31.1. Yeni səhm təklifi nəticəsində mövcud səhm mülkiyyətçilərinin paylarında olan dəyişmə ehtimalları** : Səhmlər kütləvi təklif edilir. Lakin emitentin səhmdarı öz üstünlük hüquqlarından səhmlərin Bakı Fond Birjasında yerləşdirilməsinə başlandığı tarixindən ilk 2 (iki) iş günü ərzində istifadə edərək öz paylarına mütənasib qaydada yeni buraxılan səhmləri əldə edə bilər. Bu zaman mövcud səhm mülkiyyətçisinin səhmlərinin nizamanmə kapitalında malik olduqları paya mütənasib qaydada artması ehtimal olunur. Cəmiyyətin mövcud səhmdarı üstünlük hüququndan istifadə etməzsə abunə yazılışına yazılmış investorlar növbəlik qaydasında səhmləri əldə edə bilərlər. Səhmdar öz üstünlük hüququndan istifadə etdikdə, səhmdarlar Nigar İsmayıl qızı Mehdiyevaya məxsus 49 829 ədəd səhm 3749 ədəd səhm (74.9872 %) artaraq 53578 ədəd səhmə (74.9867 %) , Rza İsmayıl oğlu Sadiqə məxsus 12 634 ədəd səhm, 951 ədəd səhm (19.0128 %) artaraq 13585 ədəd səhmə (19.0133 %), Tükazban Ağa qızı Mahmudovaya məxsusu 3987 ədəd səhm 300 ədəd səhm (6 %) artaraq 4287 ədəd səhmə (6 %) sahib olacaqlar.

Səhmlərdarlar üstünlük hüququndan istifadə etməzsə, Nigar İsmayıl qızı Mehdiyevaya məxsus 74.9872 % səhmlər azalaraq 69.7397% səhmə , Rza İsmayıl oğlu Sadiqə məxsus 19.0128 % səhmlər azalaraq 17.6823% səhmə, Tükazban Ağa qızı Mahmudovaya məxsus 6 % səhmlər azalaraq 5.5801% səhmə sahib olacaqdır.